RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 83 (10103) 13 may 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Prezident İlham Əliyevlə Pakistanın Baş naziri arasında telefon danışığı olub

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin "X" sosial media hesabında bildirilib.

Telefon danışığı zamanı liderlər Azərbaycan ilə Pakistan arasındakı qardaşlıq və strateji münasibətləri bir daha təsdiqləyib, energetika, ticarət və xalqlararası təmaslar da daxil olmaqla, əsas sahələr üzrə əməkdaşlığın davamlı olaraq genişlənməsini məmnunluqla qeyd ediblər.

Baş nazir Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun sessiyasının əhəmiyyətini və Azərbaycanın qlobal şəhərsalma gündəliyinin irəli aparılmasında ev sahibi kimi rolunu vurğulayıb.

Prezident İlham Əliyev foruma göstərilən diqqətə görə minnətdarlığını bildirib və tədbirin şəhərsalma gündəliyi üçün aparıcı beynəlxalq platforma kimi əhəmiyyətini qeyd edib.

Baş nazir Şahbaz Şərif vacib işlərlə əlaqədar tədbirdə iştirak edə bilməyəcəyini, lakin Pakistanın sessiyada yüksək səviyyədə təmsil olunacağını deyib.

Tərəflər həmçinin regional proseslər, xüsusilə Yaxın Şərqdəki vəziyyət barədə fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev Pakistanın fəal vasitəçilik rolunu, tərəflər arasında atəşkəsin təmin edilməsi və gərginliyin azaldılması istiqamətindəki uğurlu təşəbbüslərini yüksək qiymətləndirərək, bunun ölkə rəhbərliyinə olan güclü beynəlxalq etimadın göstəricisi olduğunu qeyd edib.

Liderlər sıx təmasda olmaq barədə razılığa gəliblər.

Baş nazir Prezident İlham Əliyevi Pakistana səfərə dəvət edib.

Dövlətimizin başçısı dəvəti məmnuniyyətlə qəbul edib.



# Zəngilan bölgənin nəqliyyat mərkəzlərindən birinə çevrilir

### Prezident İlham Əliyev Zəngilan rayonuna səfər edib

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin açılışında iştirak edib.**

**Həmin gün Prezident İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.**

**Daha sonra dövlət başçısı Zəngilan şəhərində "Zangilan City Park Hotel"in təməlini qoyub.**

2-3

## Zəngilandan verilən mesajlar





Prezident İlham Əliyev mayın 10-da Zəngilan sakinləri ilə görüşü zamanı səsləndirdiyi fikirlər "vasitəçilik" imitasiyası ilə məşğul olmaq istəyən Fransanın məkrli ambisiyalarının rəsmən süquta uğramasının bəyanı idi. Dövlətimizin başçısı qətiyyətlə bildirdi ki, hazırda bölgədə hökm sürən sülhün əsl müəllifi məhz Azərbaycandır və bu, ölkəmizin iradəsi sayəsində mümkün olub. Ermənistanın xarici havadarlarının köməyi ilə yaratmağa çalışdığı "qəhrəmanlıq" mifi isə bir illüziyadır: "Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər".

8

## Cənubi Qafqazda sülhün təşəbbüskarı da, qarantı da Azərbaycandır

Cənubi Qafqazda yaranan reallıqlar heç də təsadüfən formalaşmayıb. Bu reallıqların arxasında güclü dövlətçilik ənənəsi, uzaqgörən siyasi kurs və milli iradə dayanır. Məhz bu siyasi xəttin ən parlaq təzahürü Prezident İlham Əliyevin mayın 10-da Zəngilana etdiyi səfər zamanı bir daha nümayiş olundu. Bu səfərin xüsusi rəmzi mənası var idi. Səfər müasir Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin doğum günündə baş tutdu. Dövlətimizin başçısının işğaldan azad edilmiş torpaqlarda xalqla bir araya gəlməsi, əslində, tarixin, siyasi iradənin bir nöqtədə birləşməsi idi. Zəngilan sakinləri ilə görüşdə Prezident İlham Əliyev vurğulamışdır: "Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Onun ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunması idi". Bu fikir, sadəcə, tarixi xatırlatma deyildi, eyni zamanda siyasi varisliyin, milli məsuliyyətin və dövlətçilik iradəsinin açıq nümayişi idi.

8



## WUF-un Bakı zirvəsi




Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi son onilliklərdə artıq bir ənənəyə çevrilib. Bu gün ölkəmiz təkcə regionun deyil, bütövlükdə Avrasiya məkanının mühüm diplomatik və beynəlxalq tədbir mərkəzlərindən biri sayılır. Azərbaycanın beynəlxalq forumlara uğurla evsahibliyi edən, yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən və qlobal dialoq məkanına çevrilən dövlət kimi qəbul olunması təsadüfi tendensiya yox, gərgin, sistemli zəhmət sayəsində formalaşmış strateji reallıqdır.

10

## Neokolonializm nədir və Fransa modeli Ermənistanda necə işləyir?

Müasir neokolonializm klassik müstəmləkəçilikdən fərqlənir. Artıq birbaşa işğal və hərbi mövcudluq əsas alət deyil. Əvəzində təhlükəsizlik, maliyyə mexanizmləri ilə asılılıq yaratmaq, siyasi elitaya təsir etmək və onun həlledici qərarvermə prosesində yönləndirmək əsas vasitələrə çevrilib. Bu ikitərəfli təzyiq və nüfuzetmə ilə yanaşı, beynəlxalq institutlar vasitəsilə yönləndirmə və nəticədə informasiya təsiri və diplomatik təzyiq altında saxlamaq da özünü göstərir. Fransanın Ermənistan siyasətində də bu elementlər görünür.



9

## İşğaldan azad olunmuş ərazilərimizdə bu gün sabahın şəhər və kəndləri salınır



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar. Binanın təməli 2021-ci ildə qoyulub. Ərazisi 5 hektara yaxındır. Xəstəxanada terapiya, cərrahiyyə, pediatriya, doğum, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Bundan başqa, poliklinika, şüa-diaqnostika, funksional-diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostika laboratoriyası yaradılacaq. Hazırda əsas bina ilə yanaşı, yoluxucu xəstəliklər, hemodializ və poliklinika korpusları, təcili tibbi yardım stansiyası, həmçinin Cəbrayıl Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin və digər binaların inşası davam etdirilir.

10

azerbaijan-news.az

◆ Prezident İlham Əliyevin Zəngilan rayonuna səfəri

# Zəngilan bölgənin nəqliyyat mərkəzlərindən birinə çevrilir

## Zəngilan şəhərində ilk yaşayış kompleksinin açılışı olub







**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev kompleksdə yaradılmış şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd edək ki, 2022-ci ildə bu kompleksin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Dövlətimizin başçısı 2024-cü və 2025-ci illərdə yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Kompleksin ümumi ərazisi 2 hektardan artıqdır. Burada 12 bina inşa olunub. O cümlədən 4 ədəd (60 mənzilli) üçmərtəbəli, 8 ədəd (44 mənzilli) ikimərtəbəli "townhouse" tipli evlər tikilib. Kompleksdə



ümumilikdə 104 mənzil var ki, onlardan da 84-ü sakinlər, 20-si isə xidməti istifadə üçündür. Mənzillər 2, 3, 4 və 5 otaqlıdır.

Bu yaşayış kompleksində sakinlərin sosial məsələlərinin həlli istiqamətində bir sıra işlər görülüb. Ərazidə uşaq və idman meydançaları, velosiped zolağı, yeraltı və yerüstü avtomobil dayanacaqları yaradılıb. Zəngilanın baş planına əsasən, yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, məktəb, körpələr evi-uşaq bağçası və parkın yaxınlığında, ortasıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.



# Prezident İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.**



## Prezident İlham Əliyevin çıxışı

- Bu gün Zəngilan sakinləri üçün çox gözəl, əlamətdar bir gündür. Uzun fasilədən sonra siz doğma vətənə - Zəngilan şəhərinə qayıdırsınız. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür və bizim görüşümüzün məhz bu gündə keçirilməsi təbii ki, rəmzi məna daşıyır. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi. Biz - onun davamçıları onun vəsiyyətini yerinə yetirdik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində rolu danılmazdır. Onun fəaliyyəti nəticəsində Azərbaycan ağır günlərdə öz müstəqilliyini qoruya bilmişdir. Bildiyiniz kimi, yaşlı nəsil o illəri yaxşı xatırlayır - 1993-cü ildə nəinki ərazi bütövlüyümüz, müstəqilliyimiz təhlükə altında idi. O vaxt ölkəmizə rəhbərlik etmiş şəxslər ölkəmizi fəlakətə aparırdılar. Həm torpaqlarımızın işğal altına düşməsi, Şuşanın, Laçının, Kəlbəcərin erməni işğalına məruz qalması, daxili çəkişmələr, özbaşınalıq, anarxiya və ovaxtkı hakimiyyətin təxribatçı və xəyanətkar fəaliyyəti nəticəsində vətəndaş müharibəsinin başlanması - gənc müstəqil dövlətimiz olan Azərbaycan faktiki olaraq parçalanma ərəfəsində idi. O vaxt əgər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, xalqımızın, dövlətimizin taleyi çox ağır ola bilərdi. Məhz onun fəaliyyəti nəticəsində bütün mənfi meyillərə son qoyuldu, vətəndaş müharibəsinə son qoyuldu, hakimiyyətsizlik, özbaşınalıq kimi hallara son qoyuldu, ölkəmizdə sabitlik yaradıldı, inkişaf başlandı və yavaş-yavaş ordu quruculuğu da artıq getməyə başladı. Onun Azərbaycana gəlməsindən əvvəl faktiki olaraq nizami ordumuz yox idi və Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimiz məhz buna görə idi. O vaxt ordumuza rəhbərlik edən şəxslər nəinki hərbi peşə nədir, onu bilmirdilər, hətta onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. "Şuşa əldən gedərsə, başıma güllə çaxaram" deyən o namərd, xain bu gün də orada-burada sülənir. Amma o vaxt dərdimiz onda idi ki, onun kimi adamlar Azərbaycanın əsas vəzifələrini zəbt etmişdilər. Heç bir biliyi, bacarığı, iş təcrübəsi olmayan, küçədən keçən insanlar birinci, ikinci, üçüncü, dördüncü şəxs təyin olunmuşdular. Ordumuz faktiki olaraq quldurların əlində idi.

Bütün bu mənfi meyillərin qabağını almaq, o cümlədən o vaxt müxtəlif qanunsuz silahlı birləşmələri yerinə oturtmaq üçün güclü siyasi iradə və xalqın dəstəyi lazım idi. Hər ikisi də var idi. Ulu Öndərin Azərbaycan tarixində həlledici rolu bizim yaddaşımızdan heç vaxt silinməyəcək. Onun siyasətini davam etdirərək bu gün bax, biz buradayıq, Zəngilandayıq. Düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik. O vaxta qədər güclü iqtisadiyyat qurduq, güclü ordu qurduq, cəmiyyətdə vətənpərvərlik meyillərini gücləndirdik və faktiki olaraq, Azərbaycanı beynəlxalq təcriddən də çıxara bildik. İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi. Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi. 44 gün ərzində dəfələrlə bizə təzyiqlər göstərilirdi. O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər.

Bunların qabağında güclü iradə göstərmək, bunların qabağında demək ki, biz öldü var, döndü yoxdur, yolumuzdan dönməyəcəyik, əlbəttə ki, böyük iradə tələb edirdi. Yenə də 1993-cü ildəki kimi, xalqın dəstəyi lazım idi. O dəstək var idi və bütün xalqımız bir yumruq kimi birləşmişdi. O, mənə güc verirdi. İşin sonuna qədər - Şuşanın azad olunmasına qədər biz dayanmaq fikrində deyildik.

Təbii ki, o vaxt müharibənin davam etdirilməsi məqsədəuyğun deyildi və sonrakı hadisələr bunu əyani şəkildə göstərdi. Şuşanın işğaldan azad olunması ilə faktiki olaraq Ermənistan ordusunun beli qırılmışdı. Ermənistan silahlı qüvvələri faktiki olaraq mühasirədə qalmışdı. O vaxt müharibənin dayandırılması bizə imkan verdi ki, qan tökülmədən Kəlbəcər, Laçın, Ağdam rayonlarını siyasi yollarla, faktiki olaraq ultimatum yolu ilə qaytara bilək. Ultimatum da ondan ibarət idi ki, əgər Ermənistan qısa müddət ərzində, faktiki olaraq bir ay, ondan da az müddət ərzində bu torpaqlardan çıxmasa, Qarabağda qalmış bütün erməni silahlı qüvvələri məhv ediləcək. Əmr də verilmişdi və 15 minlik erməni silahlı qüvvələrinin kontingenti məhv olunacaqdı. Məhz buna görə Ermənistan, yenə də deyirəm, bizim tələblərimizə uyğun Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxmışdı.

Burada heç bir başqa amil yox idi, heç bir kənar qüvvə onlara təzyiq etmirdi, ancaq bizim sərt mövqeyimiz. Nəzarətdən kənarda qalan hissə də gec-tez bizə qayıtmalı idi, amma o tez oldu, nəinki gec. Yenə də güclü iradə, peşəkarlıq və 2023-cü ilin sentyabrına qədər görülmüş taktiki işlər, addımlar, hərbi əməliyyatlar - bütün bunlar zəmin hazırladı ki, antiterror əməliyyatı cəmi bir neçə saat davam etsin. Ermənistan ordusu ikinci dəfə təslim oldu, separatçılığa son qoyuldu, işğala son qoyuldu və biz suverenliyimizi tam bərpa etdik.

Bütün bu şanlı tarix bizimlə əbədi olacaq. Təbii ki, bizim nəsil bunu heç vaxt unutmayacaq, gənc nəsil isə bunu bilməlidir - məktəblərdə, ailələrdə, cəmiyyətdə. Bu parlaq tariximiz bizim qürur mənbəyimizdir, bu, əbədi belə olacaq.

Əlbəttə ki, bir daha qayıdıram Ulu Öndərin siyasi mirasına. Həlledici məqam məhz 1993-cü ildə idi, oktyabr ayında Prezident vəzifəsinə seçiləndən sonra bütün o mənfi meyillərin qabağı alındı. Düzdür, o vaxt bizim imkanlarımız çox məhdud idi, çoxlu problemlər var idi, birnömrəli problem məcburi köçkünlərin yaşayış şəraiti idi. Onu da biz tədricən həll etməyə başlamışdıq və artıq 2007-ci ildə çadır şəhərcikləri qalmamışdı, orada vaxtilə məskunlaşmış insanları biz evlərə, mənzillərə köçürdük. İşğal dövründə hər dəfə keçmiş köçkünlərlə dövlət xəttilə yeni inşa edilmiş şəhərciklərdə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti bir yerdir. Torpaqlar azad olunandan sonra sizin üçün daha gözəl şərait yaradılacaq. Bax, bu gün bu Zəngilan şəhərinin bu gözəl mənzərəsi o sözlərimi bir daha təsdiqləyir.

İşğalın fəsadlarını aradan qaldırmaq - bu da çox çətin bir prosesdir. Minalar, torpaqların demək olar ki, işğalçılar tərəfindən zəhərlənməsi, ekosid. Bax, bu Bəsitçay dünyaca məşhur olan bir qoruq idi. Deyilənə görə, bura dünyada ikinci ən böyük çinar ağaclarının bir yerdə olması və qədim çinar ağaclarının qoruğu idi. Demək olar ki, onun yarısını Ermənistan dövləti məhv edib. Bəzi ağacları yandırıb, bəzilərini də kəsib bazarlarda satıb. Ümumiyyətlə, bizim meşə fondunun 60 min hektarı vəhşi işğalçılar tərəfindən məhv edilmişdir. Onların əsas hissəsi Kəlbəcər, Laçın rayonlarındadır, amma Zəngilanda da var. Həm talançılıq, həm düşmənçilik, qəddarlıq, özü də heç bir əsası olmadan. Azərbaycan xalqı erməni xalqına heç bir pislik etməmişdir. Onların bizə olan nifrətinin səbəblərini yəqin ki, psixiatrlar, psixoloqlar, həkimlər araşdırmalıdırlar. Nə qədər ki, Ermənistan cəmiyyətində Azərbaycana qarşı nifrət hissi ilə yaşayan siyasi qüvvələr var, bir o qədər də biz ayıq olmalıyıq.

Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər. Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur. Onların da işi-gücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi guya ki, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər. Bizim Ermənistanı məhv etmək niyyətimiz yox idi, Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi. Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə. Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq.

*Ardı 3-cü səh.*

◆ **Prezident İlham Əliyevin Zəngilan rayonuna səfəri**

# Zəngilan bölgənin nəqliyyat mərkəzlərindən birinə çevrilir

## Prezident İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb

*Əvvəli 2-ci səh.*





Biz bizə məxsus olan torpaqlarımızı işğalçılardan qan tökərək azad etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim bütün hərbçilərimiz, qəhrəman döyüşçülərimiz ən yüksək qiymətə layiqdir. Biz həm döyüş meydanında, həm siyasi müstəvidə həm iradə, peşəkarlıq və yüksək mənəvi keyfiyyətlər, ləyaqət göstərmişik. Məhz buna görə bu gün Azərbaycana əvvəlki dövrdə olan hörmət bəlkə də birə-on artdı.

Bu gün hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq mövqeləri, beynəlxalq nüfuzu nə qədər yüksək səviyyədədir. Bizə olan hörmət, rəğbət, xoş münasibət getdikcə daha da genişlənir. Bütün bunların səbəbi var. Əlbəttə ki, bizim ləyaqətli siyasətimiz, sözlə əməl arasındakı birlik və təbii ki, bizim hərbi qələbəmiz. Mən bunu dəfələrlə demişəm, bunu indi hər kəs görə bilir. Təkcə bunu görmək üçün tarixçi olmaq lazım deyil. Qısa müddət ərzində bizim qədər tam, mütləq, birmənalı qələbə qazanan ikinci ölkə olmamışdır. Özü də biz bu müharibəni bütün beynəlxalq humanitar normalara uyğun aparmışıq, Ermənistandan fərqli olaraq. Onlar bizim şəhərlərimizi, kəndlərimizi "İsgəndər-M", "Skad" və digər ballistik uzaqmənzilli raketlərlə vururdular. Mülki əhaliyə qarşı müharibə aparırdılar həm Birinci Qarabağ müharibəsində, həm İkinci Qarabağ müharibəsində. Biz isə ermənilərə mənsub olan bir dənə də mülki obyekti dağıtmamışdıq.

Onlar Xocalı soyqırımını törətdilər. Biz isə onlar Qarabağdan Ermənistana gedəndə yolda polislər düzmüşdük ki, onlara çörək, su verək. Bax, fərq budur. Mən indi daha dərinə getmək istəmirəm, hər bir xalqda yaxşı və pis nümayəndələr var. Amma bütövlükdə götürəndə budur fərq. Zəngilanı yerlə yeksan edən təkcə Ermənistan rəhbərləri deyildi, təkcə Qarabağ separatçıları deyildi. Demək olar ki, onların bütün əhalisi kütləvi surətdə gəlib talançılıqla məşğul idi. Hətta deyirdilər ki, gedirik talana. Yəni bu, onlarda bir qayda idi, bu, normal bir davranış idi. Yəni vəhşilik normal bir davranış idi - kim nə qədər çox daş oğurladı, kim nə qədər çərçivə çıxartdı, kim nə qədər dam örtüyü çıxartdı. Sonra aparıb həm İran bazarlarında, həm də Ermənistan bazarlarında satırdılar. Bax, fərq budur. Biz bunu edə bilərik? Bizim insanların heç ağlına gəlməz belə.

Ona görə bilirsiniz, yenə də deyirəm, bu gün dünyada bizə olan hörmətin bir çox səbəbləri var: həm qalib xalq kimi, həm müharibəni müharibə qanunlarına uyğun aparan xalq kimi, həm humanitar qaydalara riayət edən xalq kimi və qurub-yaradan xalq kimi. Yaxşı, 30 il bu Zəngilan onların əlində idi, daşı-daş üstə qoyardılar da əgər bu, onların torpağıdırsa. Zəngilanın o dağılmış məscidini biz konservasiya etmişik, orada da kiçik bir fotosərgi təşkil etmişik ki, heç kim unutmasın nə günə salmışdılar onlar bizim dini-tarixi abidələrimizi. Bu onların idisə, tikib qurardılar da. Cəmi beş il keçib, təkcə Zəngilan yox, görün, hər yerdə quruculuq işləri aparılır - yollar, körpülər, elektrik stansiyaları, su anbarları, köçkünlər üçün evlər, məktəblər tikilir. Bax, sahiblər belə edər. Talançı, işğalçı isə gələr sökər, dağıdar. Amma nə qədər söksələr də, yenə də bizim iradəmizi qıra bilmədilər. Biz qayıtmalı idik və qayıtmışıq bu torpaqların sahibləri kimi. İndi də qurub-yaradırıq, o cümlədən Zəngilan rayonunda. Bu, şəhərdə birinci yaşayış məhəlləsidir, hələ ikinci, üçüncü olacaq. Bu layihələrin bəziləri təsdiqləndi, bəziləri indi təsdiqlənəcək, inşaat gedəcək. Zəngilanda ermənilər tərəfindən dağıdılmış dediyim o məscidin yanında gözəl, bəlkə də ölkəmizin ən gözəl məscidlərindən biri olan Zəngilan məscidini inşa etdik. Zəngilanda, əslində, birinci yaşayış məntəqəsi qurulmuşdur, Ağalı kəndində. Bu da demək olar ki, Zəngilana xüsusi münasibətin əlaməti idi. İndi onun yanında Məmmədbəyli kəndi salınıbdır. Şəhər genişlənəcək.

Zəngilanda hava limanı, konqres mərkəzi fəaliyyət göstərir. Yenə də azad edilmiş ərazilərdə birinci kənd təsərrüfatı müəssisəsi - "Dost Aqropark" məhz Zəngilanda yaradılmışdır və mənə verilən məlumata görə, artıq o, öz hədəfinə çatır. Çünki hədəfi 10 min baş cins mal-qara idi, bu hədəfə artıq yaxındır, 6 min hektara yaxın torpaqda da işlər gedir.

Zəngilan nəqliyyat dəhlizinin üzərində yerləşir. Biz Zəngilanı nəinki Azərbaycanın, bölgənin nəqliyyat mərkəzlərindən birinə çevirəcəyik.

Dəmir yolu inşa edilir. Yaxın gələcəkdə - bəlkə də bir il, ilyarım bundan sonra Bakıdan Zəngilana dəmir yolu ilə gəlmək mümkün olacaq, necə ki, bu gün Ağdama dəmir yolu ilə gedirlər. Gələn il Xankəndiyə dəmir yolu ilə gedəcəklər. Bu dəmir yolu davam edəcək, Zəngəzur dəhlizi ilə Naxçıvanı birləşdirəcək. Faktiki olaraq buradan Naxçıvana 30 dəqiqəlik bir yol olacaq. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı bu coğrafi bağlantı ilə ölkəmizin əsas hissəsi ilə birləşdirəcəyik.

Eyni zamanda İran sərhədində körpü, demək olar ki, tikilib bizim təşəbbüsümüzlə və indi sərhəd-gömrük infrastrukturu, binalar tikilir. Yəqin ki, bir neçə aydan sonra o da açılışa hazır olacaq və bu, beynəlxalq nəqliyyat dəhlizi olacaq. Buradan keçən həm dəmir yolları, həm avtomobil yolları böyük xeyir gətirəcək. Çünki oraya xidmət edən insanlar işlə təmin olunacaqlar. Bunun Zəngilanın və bütövlükdə Azərbaycanın iqtisadiyyatına çox böyük töhfəsi olacaq.

Ermənistanla burada sərhəd açılandan, Zəngəzur dəhlizi açılandan sonra Zəngilan faktiki surətdə ölkəmizin yeganə rayonu olacaq ki, bunun iki qonşu ölkə ilə sərhəd-keçid məntəqəsi olacaq. Görün, bunun nə qədər böyük əhəmiyyəti var. Çünki bu, həm "Şərq-Qərb" dəhlizidir, Naxçıvandan Türkiyəyə, sonra Avropaya uzanan yoldur, həm də "Şimal-Cənub" dəhlizidir. Zəngilandan Ağbənd üzərindən İrana və Fars körfəzinə, buradan Naxçıvana keçməklə Culfaya, yenə də Fars körfəzinə. Bu, beynəlxalq bir mərkəz olacaq, əvəzolunmaz mərkəz olacaq. Biz bunu belə görürük və belə də olacaq. Çünki bu günə qədər bütün planlarımız gerçəkləşib.

Azad olunmuş torpaqlarda görülən işlərlə bağlı biz həm tələsirdik, həm də hər şeyi düzgün etməyə çalışırdıq. Planlı şəkildə, strategiya əsasında ki, hər şey düz-əməlli olsun - həm insanların yaşayışı üçün, məşğulluğu üçün, təhsili üçün, eyni zamanda ölkə iqtisadiyyatı üçün. Zəngilan rayonunda görün, beş il ərzində 42 meqavatlıq su-elektrik stansiyaları tikilmişdi. Sovet vaxtında bu yox idi. İndi bu, Zəngilanı belə müstəqil şəkildə tam enerji ilə təmin edə biləcək, lap burada 200 min əhali yaşasa belə. Amma biz bütövlükdə artıq sudan 300 meqavatdan çox enerji götürürük. Bir-iki il ərzində Günəşdən də götürəcəyik, ondan da çox.

Bütün bunlar ölkənin gücüdür. Yenə də deyirəm, hər şey planlı şəkildə aparılır. Biz çalışırıq ki, tezliklə keçmiş köçkünləri öz doğma vətənlərinə qaytaraq. Amma eyni zamanda hər şey elə qurulmalıdır ki, azad edilmiş ərazilər nəinki Azərbaycanda, dünyada nümunəvi olsun və bu da olacaq.

Sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram.

❖ ❖ ❖

**Sakinlər:** Çox sağ olun.

**Sakin Murad Rəhimov:** Möhtərəm cənab Prezident, qeyd etdiyiniz kimi, bugünkü görüş əlamətdar bir günə təsadüf edir, əlamətdar bir gündə keçirilir. Xalqımızın Ümummilli Lideri, Ulu Öndərimiz Heydər Əliyevin anadan olduğu gündür. Ulu Öndərimizin Azərbaycan xalqı, Azərbaycan dövləti qarşısında xidmətləri misilsizdir, əvəzolunmazdır. Onun ən böyük arzularından biri işğal olunmuş torpaqların azad edilməsi, sakinlərin öz ata-baba yurdlarına qaytarılması idi. Sizin uğurlu siyasətiniz və Ali Baş Komandanlığınız sayəsində Ulu Öndərin arzuları yerinə yetirildi. Bu gün onun ruhu şaddır. Biz bu gün buraya ruh yüksəkliyi ilə, fərəhlə, sevinclə qayıdırıq. Bu sevinci bizə bəxş etdiyinizə görə Sizə minnətdarıq. Tanrıdan Sizə cansağlığı arzulayırıq. Tanrı Sizi qorusun. Allah-taala şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun. Ailələrinə səbir diləyirəm. Qazilərimizə, müharibədə iştirak edən bütün oğullarımıza cansağlığı arzulayıram. Allah xalqımızı qorusun, dövlətimizi qorusun, Sizləri qorusun. Bu gün bizimlə görüşə gəldiyinizə görə bir daha minnətdarıq. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Sakin Səbiyyə Balakişiyeva:** Cənab Prezident, biz də çox şadıq, Zəngilan torpağında bu gün Sizinlə görüşürük. Bu, bizim üçün bir qürur, doğrudan da, çox şərəfdir. Bunu bizə yaşatdığınız üçün Sizə minnətdarıq. Uzun illərdir biz öz torpaqlarımızdan ayrı düşmüşdük. Amma arzularımıza bu gün çatmışıq. Doğrudan da, xəyalımıza da belə gəlməzdi ki, biz öz torpaqlarımıza qayıdarıq. Biz buna görə Sizə minnətdarıq. Sizin qətiyyətiniz, gücünüz, iradəniz, eləcə də ordumuzun şücaəti nəticəsində biz bunlara nail olduq. Sizin bizə, xalqımıza məhəbbətiniz, sevginiz bizə güc-qüvvə verdi. Buna görə Sizə minnətdarıq. Biz hamımız, - Zəngilan əhalisi adından danışıram, - Sizi çox sevirik. Sevimli Mehriban xanıma bizim salamlarımızı çatdırın. Allah Sizə cansağlığı versin, uzun ömür və xalq naminə gördüyünüz bütün işlərdə uğurlar arzulayırıq. Allah ailənizi qorusun, çox sağ olun.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Çox sağ olun.

**Sakin Cəfər Cabbarlı:** Möhtərəm cənab Prezident, mən öz doğma torpağına qayıtmış bir Zəngilan gənciyəm. Eyni zamanda qürurla bildirmək istəyirəm ki, mən öz müqəddəs peşə fəaliyyətini elə müqəddəs Zəngilanımızda davam etdirən müəllim ailəsinin başçısıyam. Onu da qeyd edim ki, mən öz həyat yoldaşımla birlikdə qayıdışın ilk məskəni olan Ağalı kənd tam orta məktəbində öz şərəfli, müqəddəs peşə fəaliyyətimizi birlikdə icra edirik. Zəngilan gənclərinin savadlı yetişdirilməsində, vətənpərvər yetişdirilməsində, intellektual olmasında biz öz əməyimizi səylə ortaya qoyuruq. Onu da qeyd etmək istəyirik ki, bu qüruru bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm. Şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə, müharibə iştirakçılarımıza Allahdan cansağlığı diləyirik. Zəngilan gəncləri olaraq hər zaman "dəmir yumruq" kimi Sizin ətrafınızdayıq. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

❖ ❖ ❖

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

❖ ❖ ❖

Daha sonra dövlətimizin başçısı sakinlərlə söhbət etdi.

**Prezident İlham Əliyev:** Orada hələ xəstəxana yoxdur, moduldur, orada işləyəcəksiniz?

**Sakin:** Bəli, modul tipli xəstəxana var, orada işləyirik. Üç ildir fəaliyyət göstəririk.

**Prezident İlham Əliyev:** Orada işləyirsiniz, çox yaxşı.

**Sakin:** Olar ikimiz də şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Siz də həkimsiniz?

**Sakin:** Müəlliməm.

**Prezident İlham Əliyev:** Oxşayırsınız, bacısınız?

**Sakin:** Xeyr.

Şəkil çəkdirilir.

**Prezident İlham Əliyev:** Uşaqlar Ağalıda necə oxuyurlar?

**Qadın sakin:** Yaxşıdır, çox yaxşıdır, şükür Allaha.

**Prezident İlham Əliyev:** Yaxşıdır. Sayı da artıb yəqin ki, uşaqların.

**Kişi sakin:** 282 nəfər şagird var.

**Prezident İlham Əliyev:** Məktəb kifayət edir, yerləşirlər?

**Qadın sakin:** Bəli. Artıq bu məktəbimiz də olacaq.

**Prezident İlham Əliyev:** Bəli, bu il.

**Qadın sakin:** İnşallah, sentyabr ayından.

**Kişi sakin:** Növbəti ildən elə mən də həyat yoldaşımla yəqin ki, bu məktəbdə tədris edəcəyik, inşallah.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** İşğaldan sonra Bakıda Zəngilan şəhər icra nümayəndəsi işləmişəm.

**Prezident İlham Əliyev:** Bəs o vaxt - sovet vaxtında?

**Kişi sakin:** Hərbidə olmuşam, komandir-batalyon. Birinci Qarabağ müharibəsinin iştirakçısıyam.

**Prezident İlham Əliyev:** Buradan nə vaxt çıxmısınız?

**Kişi sakin:** 2021-ci ildən pensiyadayam. Sizin tərəfinizdən də təltif olunmuşam "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə, minnətdaram.

**Prezident İlham Əliyev:** Siz harada işləmisiniz sovet vaxtında?

**Kişi sakin:** Tikintidə işləmişəm.

**Prezident İlham Əliyev:** Tikintidə, Zəngilanda? Burada yaşamısınız? Bəs işğal dövründə, buradan çıxandan sonra harada yaşamısınız?

**Kişi sakin:** Bakı Tikiş Evinin yataqxanasında.

**Prezident İlham Əliyev:** Bu gün köçürsünüz?

**Kişi sakin:** Bəli. Çox sağ olun, bir daha minnətdarıq.

**Prezident İlham Əliyev:** Siz də burada yaşamısınız uşaqlıqdan?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Şəhərdə?

**Kişi sakin:** Kənddə yaşamışam.

**Prezident İlham Əliyev:** Bəs sonra?

**Kişi sakin:** Sonra Xırdalanda yaşamışıq.

**Prezident İlham Əliyev:** 30 il Xırdalanda? Orada şərait necə idi?

**Kişi sakin:** Yaxşı idi. Hazırda 3 ildir burada çalışıram, yaşıllaşdırma idarəsində işləyirəm.

**Prezident İlham Əliyev:** Üç ildir burada çalışırsan, sağ ol.

Şəkil çəkdirilir.

**Qadın sakin:** Təşəkkür edirik, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Bir daha təbrik edirəm sizi.

**Sakinlər:** Sağ olun, var olun.

# Prezident İlham Əliyev "Zangilan City Park Hotel"in təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Zəngilan şəhərində "Zangilan City Park Hotel"in təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, "PMD Group" MMC-nin layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, hotelin ərazisi 1,5 hektar olacaq. Burada eyni zamanda 241 nəfər qala biləcək. Hoteldə ümumi 116 nömrə olacaq. Burada restoran, çoxfunksiyalı iclas otaqları, idman zalı və açıq terras yaradılacaq. Yeni hoteldə ümumilikdə 120 nəfər işlə təmin ediləcək.

Dövlətimizin başçısı yeni hotelin təməlini qoydu.





# WUF tarixində ilk dəfə liderlər sammiti seqmenti proqrama daxil edilib

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində WUF13 ilə bağlı görülən işlərlə tanış olub













**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə bağlı görülən işlərlə tanış olub.**






AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdilər.

Qeyd edək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub.

Yüksəksəviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

Açılış və bağlanış mərasimlərinin təşkil ediləcəyi tədbir zalı 6000 nəfərə qədər iştirakçını qəbul edə biləcək. Mövcud hazırlıq səviyyəsi forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir. Forumun əsas müzakirə və paralel tədbirlərinin olacağı zona 3,55 hektar sahəni əhatə edir və iclas zalları, tematik sessiyalar, BMT tədbirləri, paralel görüşlər və ikitərəfli danışıqlar üçün nəzərdə tutulub. Burada müxtəlif formatlı rəsmi və işgüzar görüşlərin eyni vaxtda keçirilməsi üçün şərait var. Forum zamanı gündə təxminən 300-ə qədər paralel sessiya, görüş və tədbirin keçirilməsi planlaşdırılır.





Tədbirdə BMT-nin 6 rəsmi dili - ərəb, Çin, ingilis, fransız, rus və ispan dilləri ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək. Eyni zamanda əlilliyi olan şəxslər üçün beynəlxalq işarət dili xidməti nəzərdə tutulub.

Bütün tədbir ərazisi üzrə 35-dən çox iaşə məntəqəsi nəzərdə tutularaq, məkanlar və açıq hava zonalarında yerləşdirilməklə iştirakçı axınının müxtəlif istiqamətlər üzrə paylanmasına və məkanda xidmət əlçatanlığının təmin olunmasına imkan verir.

İki hektar sahəni əhatə edən zonada isə "Media mərkəzi" ilə yanaşı, "Dəyirmi masa", "Xüsusi sessiya" və "Dialoq zalları" yerləşir. "Media mərkəzi"ndə iş sahəsi, canlı yayım və müsahibə otaqları, mətbuat konfransı zalı, TV studiyaları və media istirahət sahəsi mövcuddur. "Media mərkəzi"nin ümumi tutumu 600 nəfərdir. Burada eyni vaxtda isə 400 media nümayəndəsi işləyə bilər.

Ərazidə istirahət zonası da yaradılıb. Zonanın ümumi vizual və memarlıq yanaşmasında İçərişəhərdən ilhamlanan elementlərdən və Azərbaycan xalçaçılığına aid ornamentlərdən istifadə edilib.

Forum iştirakçıları üçün açıq hava formatında WUF13 Bulvarı yaradılıb. Bu sahə 2,5 hektar ərazini təşkil edir və iştirakçıların sərbəst hərəkəti, istirahəti, iaşə xidmətlərindən istifadəsi və tədbir məkanında şəhər mühiti ab-havasını hiss etməsi üçün nəzərdə tutulub. Bulvar ərazisi "Expo zonası"na keçid və açıq ictimai məkan funksiyasını daşıyır.

"Urban Expo zonası" isə 3,5 hektar sahəni əhatə edir. Ərazidə ölkə pavilyonları, beynəlxalq təşkilatlar, dövlət qurumları, yerli və regional hakimiyyət orqanları, özəl sektor, qeyri-hökumət təşkilatları, fondlar, təhsil və tədqiqat qurumları üçün sərgi sahələri yerləşir. Ümumilikdə 121 pavilyon, o cümlədən 41 ölkə pavilyonu nəzərdə tutulub. Forumun rəsmi mərasim komponentləri tədbir məkanının ümumi planlaşdırılmasında xüsusi nəzərə alınıb. Bayraq meydanı rəsmi mərasimlərin keçirilməsi üçün hazırlanıb və şəhər ab-havasının hiss olunması məqsədilə qala divarları motivləri ilə əhatələnib.

Nəqliyyat terminalı və parklanma-transfer funksiyalarını əhatə edən əlavə 10 hektarlıq zona ümumi əməliyyat ərazisinə inteqrasiya edilib. Burada avtobus, taksi xidmətləri, parklanma və iştirakçıların məkana yönləndirilməsi proseslərinin idarə olunması icra ediləcək. Şəhər üzrə nəqliyyat mübadilə mərkəzləri, elektrik avtobusları, taksi xidməti və hava limanı daşımaları tədbirin ümumi nəqliyyat planına inteqrasiya olunub.

Qeydiyyat prosesi üçün olan sahədə eyni anda 70 nəfərə, saatda isə 1000 nəfərə xidmət göstərmək imkanı var. Əlilliyi olan şəxslər üçün ayrıca akkreditasiya və qeydiyyat masaları nəzərdə tutulub. Qeydiyyat əməliyyatları tədbirin tələblərinə uyğun olaraq Azərbaycan tərəfinin əməliyyat komandası tərəfindən qurulub və iştirakçı axınının mərhələli idarə olunmasına uyğunlaşdırılıb.

Tədbirin fasiləsiz internet, yayım və rəqəmsal əməliyyat ehtiyaclarını təmin etmək üçün əsas və ehtiyat məlumat mərkəzləri, genişmiqyaslı fiber-optik və daxili şəbəkə infrastrukturu, simsiz şəbəkə avadanlıqları və fasiləsiz işləyəcək əməliyyat mərkəzi yaradılıb.

Diqqətə çatdıraq ki, Bakının evsahibliyi edəcəyi BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan hökuməti tərəfindən birgə təşkil olunan WUF13 dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. İndiyədək 180 ölkədən 32 min 225 nəfər qeydiyyatdan keçib ki, bu da artıq WUF tarixində rekord göstəricidir. Bu mühüm tədbirdə Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz yenidənqurma və şəhərsalma modeli, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, bu regionların "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı görülmüş işlər müasir urbanizasiya və ekoloji bərpa sahəsində qabaqcıl nümunələr kimi dünya ictimaiyyətinə təqdim ediləcək. Qeyd edək ki, WUF13 həmçinin WUF tarixində ilk dəfə liderlər sammiti seqmentinin proqrama daxil edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

# Ölkəmizlə BP arasında 30 ildən artıqdır ki, nadir tərəfdaşlıq tarixçəsi var



## Prezident İlham Əliyev BP şirkətinin baş icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də bp şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Meq O'Nili BP şirkətinin baş icraçı direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onun rəhbərliyi ilə SOCAR-BP uğurlu əməkdaşlığının gələcəkdə də davam edəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizlə bp arasında 30 ildən artıqdır ki, nadir tərəfdaşlıq tarixçəsinin olduğunu dedi. Dövlətimizin başçısı vurğuladı ki, bu müddətdə həyata keçirilmiş bütün layihələrdən əldə edilən gəlir əsasən Azərbaycanın sosial-iqtisadi inkişafı üçün istifadə olunub.

Ölkəmizlə BP arasında icra olunan layihələrin sayının artmaqda olduğunu deyən Azərbaycan Prezidenti bunun əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu nümayiş etdirdiyini vurğuladı və tərəfdaşlığımızın strateji xarakter daşıdığını diqqətə çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Meq O'Nil Bakıda olmaqdan şərəf hissi keçirdiyini dedi.

BP şirkətinin baş icraçı direktoru Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə neft və qazdan əldə edilən gəlirin ölkənin inkişafına sərf olunması ilə bağlı uzaqgörən liderliklərini xüsusi vurğuladı.

Meq O'Nil bu xüsusda Bakının inkişafına, o cümlədən yollara və infrastruktura yatırılan sərmayəyə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, bəzi hallarda neft və qazdan əldə edilən gəlir sosial qeyri-bərabərliyə səbəb olur. Azərbaycanın timsalında isə bu, ölkənin tərəqqisinə kömək edib. Müstəqilliyimizi bərpa etdikdən bir müddət sonra "Əsrin müqaviləsi"nin imzalandığını xatırladan Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsindən sonra ölkəmizdə vəziyyətin çətin olduğunu dedi, ərazilərimizin itkisinə məruz qaldığımızı və humanitar fəlakətlə üzləşdiyimizi vurğuladı. Azərbaycan Prezidenti bildirdi ki, o zaman büdcəmiz sıfır səviyyəsində idi və bu vəziyyətdən çıxmağın yeganə yolu əsas beynəlxalq şirkətləri ölkəmizə cəlb etmək, onları investisiya yatırmağa inandırmaq idi. Prezident İlham Əliyev bu xüsusda BP-yə göstərdiyi etimada görə minnətdarlığını bildirdi.

Söhbət zamanı BP-nin ölkəmizdə icra etdiyi enerji, o cümlədən bərpaolunan enerji layihələri qeyd olundu, şirkətin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin önəminə toxunuldu.

Görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu qeyd edildi, SOCAR-BP əməkdaşlığının perspektivləri müzakirə olundu.

# Böyük Britaniyanın səfiri Fergus Auldun Azərbaycanda diplomatik fəaliyyəti başa çatıb



Mayın 12-də xarici işlər naziri Ceyhun Bayramovla Birləşmiş Krallığın Azərbaycandakı səfiri Fergus Auld arasında onun ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edərək, bu istiqamətdə göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirib.

Görüş zamanı Azərbaycanla Birləşmiş Krallıq arasında mövcud tərəfdaşlıq münasibətlərinin müxtəlif istiqamətləri üzrə əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri geniş müzakirə olunub. Siyasi dialoq, iqtisadiyyat, enerji təhlükəsizliyi, "yaşıl enerji", ticarət, investisiyalar, təhsil, humanitar sahələr və regional təhlükəsizlik məsələləri müzakirə olunan əsas mövzular sırasında yer alıb.

Tərəflər iki ölkə arasında mövcud dialoq, qarşılıqlı səfərlər və təmasların, o cümlədən siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildiriblər.

Görüşdə regional vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi, postmünaqişə dövründə bölgədə aparılan bərpa və yenidənqurma işləri, eləcə də digər qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfir Fergus Auld Azərbaycanda fəaliyyəti dövründə göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib. Nazir Ceyhun Bayramov səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

# WUF13-ə hazırlıq çərçivəsində nəqliyyat vasitələrinin hərəkətinin monitorinqi həyata keçiriləcək

17-22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası (WUF13) çərçivəsində nəqliyyat axınının təhlükəsiz və səmərəli idarə olunmasını təmin etmək məqsədilə WUF13 Azərbaycan Əməliyyat Şirkəti və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə nəqliyyat vasitələrinin hərəkətinin növbəti monitorinqi həyata keçiriləcək.

WUF13 Azərbaycan Əməliyyat Şirkətindən verilən məlumata görə, monitorinq çərçivəsində mayın 13-də saat 10:00-14:00 aralığında Bakı şəhərinin bir sıra küçə və prospektlərində nəqliyyatın hərəkəti üzrə müvəqqəti tənzimləmələr tətbiq olunacaq. Monitorinq Neftçilər prospekti, Yusif Səfərov küçəsi, qismən Heydər Əliyev prospekti (Sabunçu körpüsünə qədər), Mehdi Hüseyn küçəsi, Xocalı prospekti, Rixard Zorge küçəsi, Zərifə Əliyeva küçəsi, Lermontov küçəsi, eləcə də tədbir məkanı olan Bakı Olimpiya Stadionu istiqamətlərini əhatə edəcək.

Sürücülərdən və digər yol hərəkəti iştirakçılarından qeyd olunan tarixdə səfərlərini əvvəlcədən planlaşdırmaları, mümkün sıxlığı nəzərə almaları və alternativ yollardan istifadə etmələri xahiş olunur. Heydər Əliyev Beynəlxalq Aeroportu ilə şəhər mərkəzi arasında hərəkət edən H1 ekspress avtobus marşrutu fəaliyyətini normal və fasiləsiz şəkildə davam etdirəcək. Eyni zamanda, fərdi nəqliyyat vasitələri və taksilər hava limanı ərazisinə alternativ yollar vasitəsilə sərbəst daxil olub çıxa biləcəklər. Gecikmələrin qarşısını almaq məqsədilə səfərlərin öncədən planlaşdırılması tövsiyə olunur.

WUF13 öncəsi keçirilən nəqliyyat vasitələrinin hərəkətinin monitorinqi son on il ərzində Azərbaycanda keçirilən bir sıra qlobal tədbirlərə hazırlıq çərçivəsində də uğurla həyata keçirilib.

*"Azərbaycan"*

# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini anıblar





Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümüdür.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli Liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.







# Xalqımızın Ulu Öndərə ehtiramı sonsuzdur





Tarixin özü qədər əbədi, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin doğum günü bu il də ölkəmizdə böyük ehtiram və məhəbbətlə qeyd edildi.

Bu dəfə də mayın 10-da Şəhidlər xiyabanında Ulu Öndərin məzarını ziyarət etməyə gedənlərin sayı-hesabı olmadı. Bu izdiham sırasında adi insanların, hətta ailəlikcə ziyarətə gələnlərin çoxluğu diqqət çəkirdi. Əllərində əklil olan Məmməd və Anarla, ataları Mehrac Əliyevlə tanış oluruq. Məlum olur ki, Mehrac müəllim Ulu Öndərin rəhbərliyi altında uzun müddət Ordubadda məsul vəzifələrdə çalışıb. Dedi ki, 1993-cü ildə "olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə dəvət etdi: "Heydər Əliyev canından əziz bildiyi Azərbaycanı müstəqilliyə qovuşduran müqayisəyəgəlməz bir şəxsiyyətdir, mənalı yaşamaq nümunəsi, mədəniyyət, intellekt mücəssəməsidir, idarəçilik və siyasət məktəbidir. Odur ki, milli sərvətimiz olan Heydər Əliyev irsini öyrənmək, onu gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur. Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək deməkdir. Gəncliyimdən Heydər Əliyev siyasətinin əsgəri olmuşam, bu əqidə ilə təqaüd yaşımı ötmüşəm. Ulu Öndərin siyasi məktəbinin üzvü olmağımdan həmişə qürur duyuram".

Nərimanov rayonundakı M.Şəhriyar adına 193 saylı tam orta məktəbin direktoru Nihal Hacıyeva, müəllimlərdən Məleykə, Səadət, Səkinə və Leyli xanım şagirdləri ilə birlikdə ziyarətə gəlişlərindən böyük məmnunluq hissi keçirdiklərini dedilər. Məktəbin direktoru Nihal Hacıyeva bildirdi ki, görkəmli dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur: "Bu böyük şəxsiyyətin xalqımız qarşısındakı xidmətləri cildlərlə kitablara sığmaz. Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin simasında əsl milli liderini tapmışdır. O, zaman-zaman yürütdüyü uğurlu daxili və xarici siyasət nətisəcində milli ruhun dirçəldilməsinə, Azərbaycan dövlətinin, elminin, təhsilinin, iqtisadiyyatının, mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmuşdur. Heydər Əliyev həm ölkəmizin, həm də müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşüb".

Ziyarətçilər arasında Nizami rayon sakini Emin Talıbov da vardı. Bildirdi ki, Azərbaycanın dünya miqyasında tanınması Ümummilli Lider Heydər Əliyevin adı və şəxsiyyəti ilə bağlıdır: "1994-cü ildə cəbhədə atəşkəsə nail olunması Heydər Əliyevin tarixi xidmətidir və Ulu Öndər bununla ölkəyə sabitlik gətirdi, iqtisadi islahatlara başladı, Azərbaycana nəhəng xarici sərmayələr cəlb etdi, "Əsrin müqaviləsi" ilə Qərbi öz tərəfinə çəkə bildi. Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi Heydər Əliyevin çox böyük uzaqgörənliyini nümayiş etdirir. Məhz Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, o, müstəqil yaşamaq istəyir və öz ərazisinin sahibi olmağa, bütün sərvətləri barəsində müstəqil qərar qəbul etməyə qadirdir. Artıq Azərbaycan Heydər Əliyevin, bu gün isə möhtərəm Prezidentimiz İlham Əliyevin yeritdiyi uğurlu xarici siyasət sayəsində beynəlxalq aləmdə özünəməxsus yer tutmuş və tutmaqdadır".

Az sonra sinəsi orden və medallı ağsaqqallarla - Sabir Əlihüseynli, Əli Qarayev, Xalid Hafizov, Dünyamalı Cavadov və digərləri ilə həmsöhbət olduq. S.Əlihüseynli bildirdi ki, Ceyranbatan qəsəbəsinin ağsaqqalları hər il mayın 10-da Ulu Öndərin məzarını ziyarət edirlər: "Biz ağsaqqalları sevindirən həm də odur ki, Heydər Əliyevin ideyaları əsasında formalaşan dövlətçilik düşüncəsi, milli birlik və azərbaycançılıq məfkurəsi ölkəmizin gələcək uğurlarının əsas təminatıdır. Böyük qürur hissi ilə deyə bilərik ki, bu gün böyük ehtiramla məzarını ziyarət etdiyimiz Heydər Əliyev Qarabağ zəfərinin təməlini qoymuş Liderdir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən dirçəliş prosesi, insanların doğma yurda qayıdışı, həyatının yenidən formalaşması və gənclərin milli ruhda yetişdirilməsi bu siyasətin gələcəyə yönəlmiş ən mühüm təzahürlərindən biridir. Biz yaşlı nəsil ümidvarıq ki, 30 illik qaçqınlıq və köçkünlükdən sonra öz doğma kəndinə, elinə-obasına qayıtmış qocalar, eləcə də gənclər Heydər Əliyev ideyalarına sadiq qalaraq dövlətimizin gələcək inkişafında mühüm rol oynayacaq, müstəqil və qüdrətli Azərbaycanın daha da güclənməsinə öz töhfələrini verəcəklər".

İzdiham içərisində xüsusi diqqətçəkən, əllərində tər güllər tutmuş Azərbaycan Dövlət Pedaqoji Universitetinin bir qrup tələbəsi ilə də görüşdük. Universitetin İncəsənət və fiziki hazırlıq fakültəsinin II kurs tələbəsi Raul Əliyev yaşıdları adından bildirdi ki, biz tələbə gənclər hər il xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını böyük ehtiramla, sevgi ilə ziyarət edirik: "Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, daha da güclənməsinə böyük töhfələr verərək onun gələcək inkişaf strategiyasını müəyyənləşdirmişdir. Ümummilli Liderin çoxsahəli fəaliyyətinin əsas istiqamətlərindən biri də idman və bədən tərbiyəsi sahəsi olmuşdur. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə idmanın da inkişafına böyük diqqətlə yanaşmışdır. O illər idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdür. Yeni idman kompleksləri, qurğuları, zalları tikilmiş, geniş meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdır. İdmançılara dövlət səviyyəsində diqqət və qayğı göstərilmişdir. Məhz buna görə gənclərimiz beynəlxalq yarışlardan medallarla qayıtmışlar. Müxtəlif ölkələrdə himnimizi səsləndirmiş, bayrağımızı ucalara qaldırmışlar. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin gənclərin sağlam böyüməsinə, zaman-zaman Azərbaycan idmanına göstərdiyi diqqət və qayğının nəticəsidir".

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov BP-nin nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 12-də BP şirkətinin yeni baş icraçı direktoru Meq O'Nilin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tərəflər Azərbaycan ilə BP arasında mövcud olan uzunmüddətli və səmərəli tərəfdaşlığın uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıblar.

Qarşılıqlı faydalı əməkdaşlığın M.O'Nilin fəaliyyəti dövründə daha da genişlənəcəyinə və yeni layihələrlə zənginləşəcəyinə ümidvarlıq ifadə olunub.

BP-nin Azərbaycanda həyata keçirdiyi layihələrin ölkənin enerji sektorunun inkişafında rolu vurğulanıb, əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# DİN-də xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 12-də respublikanın şəhər, rayon polis orqanlarında və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***"Azərbaycan"***

# YAP nümayəndə heyəti Çində səfərdədir





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, partiyanın Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli, İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasına səfər edib.

Mayın 12-də nümayəndə heyətinin Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjen Tszyanban ilə görüşü keçirilib. Görüşdə Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa, qarşılıqlı etimada və hərtərəfli strateji tərəfdaşlığa əsaslandığı vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin dövlətlərarası münasibətlərin inkişafına xüsusi önəm verdikləri bildirilib.

Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək fəal siyasi dialoq şəraitində müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-logistika, turizm, "yaşıl enerji", rəqəmsal texnologiyalar və digər sahələrdə mövcud potensialdan səmərəli istifadənin diqqət mərkəzində saxlanıldığı və çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün ardıcıl fəaliyyətin həyata keçirildiyi qeyd olunub.

Görüşdə qlobal kataklizmlərlə müşayiət olunan geosiyasi transformasiya şəraitində Azərbaycan ilə Çinin beynəlxalq hüquq normalarına və milli maraqlara hörmət prinsiplərinə əsaslanaraq bəşəriyyətin sağlam gələcəyi naminə sülhün, təhlükəsizliyin və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi istiqamətində konstruktiv siyasət yürütməsinin önəmi vurğulanıb.

Tahir Budaqov Azərbaycanın Vahid Çin prinsipini birmənalı şəkildə dəstəklədiyini bildirib.

Çjen Tszyanban isə Çin Xalq Respublikasının ölkəmizin haqlı və ədalətli mövqeyini müdafiə etdiyini, o cümlədən ərazi bütövlüyü və suverenliyinə qətiyyətli dəstək göstərdiyini bildirib.

Hər iki ölkənin mühüm qlobal təşəbbüslərlə çıxış etdiyi qeyd olunaraq "Bir kəmər, bir yol" layihəsinin və Zəngəzur dəhlizinin geostrateji əhəmiyyəti diqqətə çatdırılıb.

Mayın 17-də paytaxt Bakıda öz işinə başlayacaq və Çin nümayəndə heyətinin də təmsil olunacağı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının beynəlxalq müstəvidə şəhərsalma prosesində önəmli rol oynayacağına inam ifadə olunub.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müasir şəhərsalma konsepsiyaları əsasında genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı və Çin şirkətlərinin də innovativ texnologiyalardan istifadə etməklə bu prosesə mühüm töhfələr verə biləcəyi qeyd olunub.

Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

2024-cü il noyabrın 13-də hakim partiyalar arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələrək müştərək hədəflərin gerçəkləşdirilməsi üçün məqsədyönlü tədbirlərin uğurla davam etdirildiyi bildirilib və bu xüsusda qarşılıqlı maraq doğuran digər məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Pekin Partiya Məktəbinə, Mərkəzi Partiya Məktəbinin Tarix muzeyinə və "Xiaomi" şirkətinin avtomobil superzavoduna ekskursiyası da təşkil edilib.

***"Azərbaycan"***

# “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Tütün və tütün məmulatı haqqında”, “Reklam haqqında” və “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 895 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 141** **Bakı şəhəri, 12 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 895 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; 2025, № 3, maddə 265, № 5, maddə 512, № 12 (II kitab), maddə 1260; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 aprel tarixli 118 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "2404 12 000 1", "2404 19 000 1" alt yarımmövqelərinə aid sətirlər ləğv edilsin;

1.2. "2404 12 000 2" və "2404 19 000 2" alt yarımmövqelərinə aid sətirlərin "Mal mövqelərinin adları" sütunundan "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 oktyabr tarixli 414 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1732 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Reklamı qadağan olunan əmtəələrin Siyahısı"nın 8-ci hissəsindən "elektron siqaretlər," sözləri çıxarılsın və həmin hissəyə "alışqanlar" sözündən sonra ", habelə nikotin tərkibi olmayan elektron siqaretlər" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, № 1, maddə 80, № 2, maddə 178; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 aprel tarixli 119 nömrəli və 1 may tarixli 127 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. "2404 12 000 1" və "2404 19 000 1" alt yarımmövqelərinə aid sətirlər ləğv edilsin;

3.2. "2404 12 000 2" və "2404 19 000 2" alt yarımmövqelərinə aid sətirlərin "Mal mövqelərinin adları" sütunundan "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 aprel tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 784 (Cild I) ilə təsdiq edilmiş "Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər"in 2.1-ci və 3.1-ci bəndlərindən "və elektron siqaretlər də" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 iyun tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1362 (Cild I); 2024, № 1, maddə 80) ilə təsdiq edilmiş "Tütün məmulatları tullantılarının utilizasiyası Qaydası"nın 1.3.1-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci cümləyə "tütünü" sözündən sonra ", nikotin tərkibli elektron siqaretlər" sözləri əlavə edilsin;

5.2. ikinci cümlədən "və elektron siqaretlər də" sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 mart tarixli 62 nömrəli, 6 aprel tarixli 96 nömrəli və 29 aprel tarixli 123 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.1.4.5.1.6-cı yarımbəndi ləğv edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 311 (Cild I); 2024, № 3, maddə 302, № 7, maddə 930; 2025, № 10, maddə 993) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1.6-cı yarımbənd ləğv edilsin;

7.2. 2.1.9-cu yarımbənddən "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın;

7.3. 3.1.2-ci, 7.4.2-ci yarımbəndlərdə və 6.7-2-ci, 7.5-ci bəndlərdə "2.1.5-2.1.9-cu" sözləri "2.1.5-ci, 2.1.7-2.1.9-cu" sözləri ilə əvəz edilsin;

7.4. 7.8-ci bənddə "2.1.6-2.1.9-cu" sözləri "2.1.7-2.1.9-cu" sözləri ilə əvəz edilsin;

7.5. həmin Qaydalara əlavə - "Aksiz markalarına və məcburi nişanlamaya dair ümumi tələblər" üzrə:

7.5.1. 6-cı hissədən, 6.2-ci bənddən və 6.2.1-ci yarımbənddən "birdəfəlik istifadə üçün elektron siqaret," və "və elektron siqaretlər üçün mayeyə" sözləri çıxarılsın;

7.5.2. 7-ci hissənin birinci və ikinci abzaslarından "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri və həmin hissənin ikinci abzasından "və elektron siqaretlər üçün mayenin" sözləri çıxarılsın;

7.6. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Siyahısı" üzrə:

7.6.1. 2.2-ci bənd ləğv edilsin;

7.6.2. 2.5-ci bənddən "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 6 mart tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 272 (Cild I) ilə təsdiq edilmiş "Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı"nın "27. Tütün məhsulları və analoji məhsullar" hissəsinin 27.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 27.4. | Fərdi elektrik buxarlandırıcı qurğular | 8543 40 000 0-dan |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İri istehlakçılar üçün illik qaz sərfiyyatının həddinin müəyyən edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 139** **Bakı şəhəri, 12 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İri istehlakçılar üçün illik qaz sərfiyyatının həddi 300 000 000 (üç yüz milyon) kubmetr və ondan yuxarı müəyyən edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Milli Məclisin iclasında

# Heydər Əliyevin ömür yolu xalqa məhəbbət və sədaqət meyarına çevrilib

**Mayın 12-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə bağlı fikirlərini bildirib.**
**Xalqımızın Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103 illiyini böyük qürurla, hörmət və ehtiramla qeyd etdiyini deyən spiker bildirib ki, mayın 10-da ölkə ictimaiyyətinin nümayəndələri ilə yanaşı, Milli Məclisin deputatları Fəxri xiyabanı ziyarət edərək Ümummilli Liderin əziz xatirəsini yad etdilər. Milli Məclisin iclası da bizə Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyevin xidmətləri qarşısında bir daha minnətdarlığımızı ifadə etmək imkanı yaradır.**

Spiker diqqətə çatdırıb ki, tariximizin ən böyük şəxsiyyətlərindən biri olan Heydər Əliyevin keçdiyi ömür yolu doğma torpağa və xalqa məhəbbət və sədaqət meyarına çevrilmişdir: "1969-1982-ci illərdə Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyevin dahiyanə idarəçilik qabiliyyəti, strateji təfəkkürü və irəlini görmək məharəti sayəsində ölkəmiz böyük bir inkişaf yolu keçmişdir. Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsinə imkan verən zəngin iqtisadi potensial yaradıldı. Bu illər tariximizə həm də mədəni intibah dövrü kimi daxil oldu".

Milli Məclisin Sədri bildirib ki, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan mürəkkəb problemlər qarşısında qalmışdı. "Dövlət idarəçiliyində yol verilən kobud səhvlər, həyatın bütün sahələrini bürüyən dərin böhran, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğal edilməsi, milli həmrəyliyin pozulması, separatizm meyillərinin güclənməsi, vətəndaş müharibəsi təhlükəsinin yaranması müstəqil dövlətin varlığını ciddi təhlükə altına almışdı.

Məhz belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin ali dövlət hakimiyyətinə qayıtması, Ali Sovetin Sədri və 4 ay sonra xalqın yekdil iradəsi ilə prezident seçilməsi destruktiv proseslərin və hadisələrin qarşısını almağa, ölkədə vəziyyəti sabitləşdirməyə imkan verdi".

Tariximizin ən mürəkkəb və taleyüklü dövründə məhz Ulu Öndərin siyasi müdrikliyi, qətiyyəti və fədakarlığı sayəsində dövlət müstəqilliyimizi qoruyub saxlamaq mümkün oldu.

Qeyd olunub ki, Heydər Əliyevin rəhbərliyi ilə müasir milli dövlətçilik konsepsiyası formalaşdırıldı və həyata keçirildi. Müstəqil dövlətimizin Konstitusiyası hazırlanaraq qəbul olundu, xalqımızın maraqlarına cavab verən daxili və xarici siyasətin strateji istiqamətləri müəyyən edildi. Ölkəmizin uzunmüddətli və dayanıqlı inkişaf modeli yaradılıb, Azərbaycan beynəlxalq birliyin nüfuzlu üzvünə çevrildi.

Ümummilli Liderin başladığı möhtəşəm işlərin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini deyən Milli Məclisin Sədri son iyirmi üç ilin Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olduğunu bildirib: "Ölkə həyatının bütün sahələrində böyük və qürurverici uğurlar əldə edilmişdir. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bu isə xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı olan ən mühüm problemi həll etməyə imkan vermişdir.

Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələri təmin etdi. Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu, dövlətimizin ərazi bütövlüyü və suverenliyi, tarixi ədalət bərpa olundu. Ümummilli Lider Heydər Əliyev tərəfindən başladılmış tarixi missiya şərəflə başa çatdırıldı".

Spiker qeyd edib ki, ötən ilin avqustunda əldə edilmiş Vaşinqton razılaşmaları Azərbaycan Prezidentinin sülh diplomatiyasının təntənəsinə çevrildi, onun irəli sürdüyü sülh gündəliyinin həyata keçirilməsi yolunda həlledici addım oldu. Bu hadisə ölkəmiz və bütün Cənubi Qafqaz regionu qarşısında sülh, sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açdı.

"Biz bir məqamı həmişə qürurla vurğulayırıq ki, 1993-cü ilin iyununda Heydər Əliyev böyük siyasətə qayıdışa Azərbaycan Parlamentinin Sədri vəzifəsində başlamışdır. Ulu Öndərin fəaliyyəti sayəsində yeni inkişaf səviyyəsinə yüksəlmiş parlamentarizm ənənələri bu gün dövlət başçısının qayğısı və Milli Məclis deputatlarının birgə səyləri ilə daha da inkişaf etdirilir" - deyə spiker Sahibə Qafarova diqqətə çatdırıb.

Spiker bildirib ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dünya siyasət sənəti xəzinəsinə daxil olub. Onun ideyaları xalqımızın bugünkü və gələcək nəsillərinin əməllərində yaşayır və daim yaşayacaqdır.

Sonra faşizm üzərində Qələbə Günü münasibətilə fikirlərini bölüşən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, mayın 9-da faşizm üzərində Qələbənin 81 illiyi qeyd olundu. Qələbənin əldə edilməsinə Azərbaycan xalqı böyük töhfələr verib. Müharibə dövründə Azərbaycandan 700 minə yaxın adam cəbhəyə çağırılıb. Azərbaycanlılardan ibarət 5 milli diviziya yaradılıb. 320 minə qədər həmvətənimiz döyüş meydanlarından geriyə qayıtmayıb. Əsgər və zabitlərimiz döyüş meydanlarında misilsiz qəhrəmanlıq və şücaət göstəriblər. Həmvətənlərimiz 400 mindən çox döyüş ordenləri və medalları ilə təltif edilib, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı ordunun ehtiyaclarına uyğunlaşdırılmışdı. Bakıdan cəbhəyə 75 milyon ton neft və 22 milyon ton benzin göndərilmişdir. Azərbaycan yanacağı Qələbənin əldə edilməsində əvəzsiz rol oynamışdır.

Spiker qeyd edib ki, İkinci Dünya müharibəsinin veteranları dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunub. O, veteranlara möhkəm cansağlığı arzulayıb və bildirib ki, müharibə dövründə həlak olmuş həmvətənlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, müharibədən 75 il sonra xalqımızın övladları qəhrəmanlıq ənənələrini İkinci Qarabağ müharibəsi günlərində də nümayiş etdiriblər. Nəsillər arasında əlaqə, milli-mənəvi dəyərlərə sədaqət və öz torpağı uğrunda fədakarlıq xalqımızın yenilməz ruhunun rəmzinə çevrilib.

İclasda Milli Məclisin Sədri may ayının 6-dan 8-dək Monteneqroya işgüzar səfəri haqqında da məlumat verib. Bildirib ki, səfərdə məqsəd həmin ölkənin Budva şəhərində keçirilən Aralıq Dənizi Parlament Assambleyasının üzvü və tərəfdaşı olan parlamentlərin sədrlərinin 1-ci sammitində və assambleyanın 20-ci plenar sessiyasında iştirak etmək idi. Bu nüfuzlu beynəlxalq parlament məclisinin Avropa-Aralıq dənizi və Körfəz ölkələrinin 34 parlamentini birləşdirdiyinin, fəaliyyətinin təhlükəsizlik, iqtisadi inteqrasiya, dinlərarası dialoq və digər məsələlərin həllinə kömək göstərməyə yönəldiyini deyən spiker qeyd edib ki, son bir ildə Azərbaycan Milli Məclisi ilə bu təşkilat arasında əlaqələr sürətlə inkişaf edib, müxtəlif qarşılıqlı səfərlər və görüşlər həyata keçirilib.

Bu ilin yanvar ayında Aralıq Dənizi Parlament Assambleyasının Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalamağı və Milli Məclisə müşahidəçi statusu verməyi təklif etdiyini deyən spiker Sahibə Qafarova xüsusilə qeyd edib ki, bu məqam Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir. Digər tərəfdən, Azərbaycan Respublikası Milli Məclisinin parlament diplomatiyasında fəal rolunu, beynəlxalq parlament təşkilatları ilə səmərəli əməkdaşlığını bariz şəkildə əks etdirir.

Milli Məclisin Sədri bildirib ki, tədbir çərçivəsində təşkil olunmuş mərasim zamanı Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Parlament Şəbəkəsinin sədri kimi Milli Məclisin Sədri Sahibə Qafarova və Aralıq Dənizi Parlament Assambleyasının prezidenti Culio Çentemero imzalayıblar.

Eyni zamanda Azərbaycan Respublikasının Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib.






Parlament sədrlərinin 1-ci sammitində parlament diplomatiyası ilə bağlı məsələlər müzakirə olunub. Milli Məclisin Sədri Sahibə Qafarova çıxışında qeyd edib ki, parlament diplomatiyası etibarlı, inklüziv olmalı və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmalıdır. "Bildirdim ki, Azərbaycan Milli Məclisi çoxtərəfli parlament platformaları çərçivəsində iş birliyinə xüsusi önəm verir. Biz parlamentlərarası əməkdaşlığı ortaq çağırışların həlli üçün mühüm vasitə hesab edirik. Xatırlatdım ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Azərbaycanın təşəbbüsü ilə yaranması və təşkilatın fəaliyyəti də ölkəmizin qlobal səviyyədə parlament əməkdaşlığının gücləndirilməsinə sadiqliyini əks etdirir", - deyə spiker diqqətə çatdırıb.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın Monteneqro parlamentinin Sədri Andrija Mandiç ilə görüşü olub. Spiker qeyd edib ki, görüşdə Azərbaycan-Monteneqro münasibətlərinin inkişafında parlamentlərarası təmasların mühüm rolu qeyd olunub və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Spiker Sahibə Qafarova çıxışının sonunda Monteneqroya işgüzar səfərin uğurlu olduğunu bildirib.

Sonra cari məsələlərlə bağlı müzakirələr keçirilib. Milli Məclisin komitə sədrləri Şahin İsmayılov, Zahid Oruc, deputatlar Tural Gəncəliyev, Vüqar Bayramov, Nizami Səfərov, Fəzail İbrahimli, Mahir Süleymanlı, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Rizvan Nəbiyev bir sıra məsələlər barədə fikirlərini bölüşüblər. Çıxışlarda Ulu Öndərin anadan olmasının 103-cü ildönümündə Prezident İlham Əliyevin Şərqi Zəngəzurda öz ata-baba yurdlarına qayıdan sakinlərlə görüşünün xüsusi siyasi və mənəvi əhəmiyyət daşıdığı bildirilib. Qeyd olunub ki, Prezident İlham Əliyevin sosial media paylaşımında vurğuladığı kimi, Ümummilli Lider Heydər Əliyev bugünkü Azərbaycanı görsəydi, böyük qürur hissi keçirərdi. Bildirilib ki, müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun aparıcı siyasi və iqtisadi güclərindən birinə çevrilib. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk postsovet münaqişə ölkəsi kimi yeni regional reallıq formalaşdırıb. Bu inkişaf modeli Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik strategiyasının davamı və bugünkü güclü Azərbaycan həmin siyasi kursun nəticəsidir.

Qeyd olunub ki, bəzi dövlətlər və ayrı-ayrı beynəlxalq dairələr regionda uzunmüddətli sülhün bərqərar olmasında maraqlı görünmür, siyasi və hüquqi baxımdan qərəzli yanaşmalar nümayiş etdirirlər. Çıxışlarda Fransanın regionla bağlı siyasəti, Ermənistanın hərbiləşdirilməsi, regional sabitləşdirici prosesləri pozmaq, siyasi təzyiq cəhdləri tənqid olunub.

Deputatlar xüsusilə Fransanın bəzi rəsmilərinin çıxışlarına toxunaraq qeyd ediblər ki, Fransa Senatında səsləndirilən fikirlərdə regionda baş vermiş hadisələr təhrif olunmuş şəkildə təqdim olunub, Azərbaycanın mövqeyi və işğal dövründə ölkəmizin məruz qaldığı dağıntılar isə diqqətdən kənarda saxlanılıb. Onların fikrincə, bu cür yanaşmalar beynəlxalq münasibətlərdə ikili standartların və selektiv münasibətin növbəti təzahürüdür.

Deputatlar bildiriblər ki, işğal dövründə yüzlərlə tarixi, dini və mədəni abidə dağıdılıb, məhv edilib. Buna baxmayaraq, həmin dövrdə bir sıra beynəlxalq təşkilatlar və bəzi Qərb dairələri susqun mövqe sərgiləyiblər. Çıxışlarda Azərbaycanın öz ərazisində yerləşən bütün dini və tarixi abidələri qoruduğu xüsusi vurğulanıb.

Sonra iclasın gündəliyindəki məsələlərə baxılıb. Parlamentin Sədri Sahibə Qafarova birinci məsələnin İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı olduğunu söyləyib. Spiker bu məsələ ilə əlaqədar olaraq plenar iclasda Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimovun və daxili işlər nazirinin müavini Fazil Quliyevin iştirak etdiyini deyib.

Daxili işlər nazirinin birinci müavini, Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru Seyfulla Əzimov 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı təqdim edib. Milli Koordinator bildirib ki, hesabat ölkədə insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən kompleks tədbirlərin nəticələrini əhatə edir və dövlət qurumlarının məlumatları əsasında hazırlanıb. Hesabatda həmçinin qeyri-hökumət təşkilatlarının materialları və aidiyyəti beynəlxalq qurumların təhlil və qiymətləndirmələri də nəzərə alınıb.

Məlumatda qeyd olunub ki, insan alveri təkcə hüquq-mühafizə məsələsi deyil, eyni zamanda sosial-iqtisadi və informasiya təhlükəsizliyi baxımından da ciddi qlobal problemdir. Diqqətə çatdırılıb ki, hesabat dövründə Azərbaycanda bu sahədə fəaliyyət çoxsəviyyəli və sistemli şəkildə həyata keçirilib, qabaqlayıcı tədbirlər, cinayət təqibi, qurbanların müdafiəsi və sosial reabilitasiyası ardıcıl şəkildə davam etdirilib.

İnsan alverinə qarşı mübarizənin əsas prioritet istiqamətlərindən olan institusional mexanizmlərin təkmilləşdirilməsinə hesabat ilində də önəm verilərək aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə qanunvericiliyə müvafiq dəyişikliklər edilib. Eyni zamanda 2026-2030-cu illəri əhatə edən Milli Fəaliyyət Planı layihəsi razılaşdırılaraq aidiyyəti üzrə təqdim olunub.

Beynəlxalq əməkdaşlıq çərçivəsində bir sıra ölkələrlə təcrübə mübadiləsi aparıldığı, beynəlxalq təşkilatların tövsiyələrinin nəzərə alındığı və müxtəlif əməkdaşlıq sənədlərinin imzalandığı bildirilib.

Cinayət təqibi və qurbanlarla iş üzrə qeyd olunub ki, hesabat dövründə insan alveri cinayətlərinin əksəriyyəti açılıb, cinayətkar qruplar zərərsizləşdirilib, təqsirləndirilən şəxslər məsuliyyətə cəlb olunub. Qurbanların sosial müdafiəsi, reabilitasiyası və reinteqrasiyası istiqamətində konkret tədbirlər həyata keçirilib.

Sonda vurğulanıb ki, insan alveri Azərbaycanda geniş yayılmış cinayət xarakteri daşımır və bu sahədə mövcud olan risklər sistemli dövlət siyasəti nəticəsində nəzarətdə saxlanılır. Qarşıdakı dövrdə isə institusional mexanizmlərin təkmilləşdirilməsi, preventiv tədbirlərin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi əsas prioritetlər olacaq.

Sonra parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Milli Koordinatorun illik məlumatı ilə bağlı rəhbərlik etdiyi komitənin rəyini təqdim edib. Komitə sədri Azərbaycanın postmüharibə dövründə dövlət suverenliyini tam bərpa etməsi fonunda təhlükəsizlik və hüquq-mühafizə sisteminin güclənməsi ilə insan alverinə qarşı mübarizənin daha effektiv mərhələyə keçdiyini diqqətə çatdırıb. Bildirib ki, işğaldan azad olunmuş ərazilərdə dövlət nəzarətinin tam təmin edilməsi isə bu sahədə risklərin minimuma endirilməsinə mühüm töhfə verib. 2025-ci il üzrə beynəlxalq hesabat və qiymətləndirmələrdə müharibələr, silahlı münaqişələr, iqtisadi böhranlar və beynəlxalq təhlükəsizlik problemlərinin insan alverinin yayılmasına birbaşa təsir göstərdiyi xüsusi olaraq vurğulanıb.

Məlumatda yer alan Azərbaycan üzrə statistik göstəriciləri təhlil edən komitə sədri diqqətə çatdırıb ki, insan alveri cinayətləri ümumi cinayətlərin 1 faizindən azını təşkil edir və son 20 ildə azalma tendensiyası müşahidə olunur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı ilə bağlı rəhbərlik etdiyi komitənin mövqeyini diqqətə çatdırıb. O bildirib ki, təqdim olunan məlumat həyata keçirilmiş kompleks tədbirləri sistemli və lakonik şəkildə əhatə edir və burada insan alverinin yalnız hüquq-mühafizə deyil, eyni zamanda sosial-iqtisadi və müasir mərhələdə informasiya təhlükəsizliyi problemi kimi xarakterizə olunması düzgün yanaşmadır. Komitə sədri bir sıra hüquqi aspektlərə də toxunaraq insan alverinə qarşı cinayətlərin açılması üzrə göstəricinin 97 faizə çatmasını mühüm nailiyyət kimi xarakterizə edib.

Çıxışda həmçinin qeyd olunub ki, son yeddi illə müqayisədə 2025-ci ildə insan alveri qurbanlarının sayında təxminən iki dəfə azalma müşahidə edilib. Bu tendensiya effektiv cinayət təqibi siyasətinin və kompleks preventiv tədbirlərin nəticəsi kimi qiymətləndirilib. Əli Hüseynli vurğulayıb ki, Prezidentin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış qələbə və ərazi bütövlüyünün təmini ölkədə ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə xidmət edib. O əlavə edib ki, Daxili İşlər Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən həyata keçirilən koordinasiyalı tədbirlər, həmçinin cəmiyyətin mövcud müsbət sosial dəyərləri bu sahədə mühüm rol oynayır. Nəticə etibarilə ölkədə insan alveri cinayətlərinin geniş yayılmasının qarşısı alınıb və bu istiqamətdə daha dayanıqlı və effektiv mexanizmlərin formalaşdırılması prosesi davam etdirilir.

Müzakirələrdə komitə sədri Fazil Mustafa, deputatlar Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Razi Nurullayev, Azər Allahverənov qeyd və təkliflərini söyləyiblər.

Daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov dəstəyə görə deputatlara təşəkkür edib, səsləndirilən təkliflərin gələcəkdə nəzərə alınacağını söyləyib.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı nəzərə alınıb.

Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" qanun layihəsini təqdim edib. Bildirib ki, sənəddə Quba rayonunun inzibati ərazisinə daxil olan Vladimirovka, Alekseyevka və Timiryazev yaşayış məntəqələrinin adlarının müvafiq olaraq "Elbir", "Çinarlı" və "Bəhrəli" adlandırılması təklif edilir. Komitə sədri təklifin tarixi ədalətin bərpasına, milli toponimik irsin zənginləşdirilməsinə və dövlətçilik təfəkkürünün möhkəmləndirilməsinə xidmət edən mühüm addım kimi qiymətləndirildiyini söyləyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev növbəti məsələni "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri layihədə təklif olunan dəyişikliklərin əkin təyinatlı torpaqlarda müasir texnologiyaların daha səmərəli tətbiqinə, məhsuldarlığın yüksəlməsinə, fitosanitar mühitin yaxşılaşdırılmasına, su resurslarından istifadənin səmərəliliyinin artırılmasına, istehsal prosesində texniki maneələrin aradan qaldırılmasına xidmət etdiyini söyləyib. Qeyd edilib ki, sənəd kənd təsərrüfatı fəaliyyətinə mane olan yaşıllıqların götürülməsinin hüquqi əsasının və bundan irəli gələrək götürmənin mexanizminin yaradılmasını nəzərdə tutur.

Diqqətə çatdırılıb ki, dəyişikliklərə əsasən, qanunun əsas anlayışlar maddəsinə "ağac" və "kol" anlayışları əlavə edilir. Bununla yanaşı, qanunun 13-cü maddəsində yaşıllıqların götürülməsinin prosedur qaydalarını özündə ehtiva edən müvafiq dəyişikliklər təklif olunur. Layihədə məqsədli təyinatı əkin, çoxillik əkmələr olan kənd təsərrüfatı təyinatlı torpaqlardakı yaşıllıqların kənd təsərrüfatına mane olması halının yaşıllıqların götürülməsinə əsas verən hallar sırasına daxil edilməsi, həmin torpaqlarda olan kolların kəsilməsi üçün ümumi icraatdan fərqli olan daha sadələşdirilmiş icraatın (məlumatlandırma icraatının) tətbiqi, əkin təyinatlı torpaqlardakı ağaclara münasibətdə yaşıllıqların götürülməsinin ümumi qaydalarının tətbiq edilməsi, kol, gül-çiçək və ot bitkilərinin kəsilməsi üçün bərpa dəyərinin ödənilməməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məsələ barədə rəhbərlik etdiyi komitənin rəyini açıqlayıb. O, təqdim edilən məsələnin kənd təsərrüfatı təyinatlı torpaqlarda istehsal prosesinə mane olan, aqrotexniki baxımdan fayda verməyən, sahələrin homogenliyini pozan yaşıllıqların hüquqi tənzimlənməsi ilə bağlı olduğunu deyib. Bildirilib ki, bu gün kənd təsərrüfatı yüksək texnologiyalar əsasında inkişaf edir və bu, əkin sahələrinin maneəsiz və düzgün strukturlaşmasını tələb edir. Lakin bir çox hallarda əkin torpaqlarında nizamsız şəkildə yerləşmiş kol və ağaclar texnologiyaların tətbiqinə mane olur, məhsuldarlığı azaldır, əlavə yanacaq sərfiyyatına səbəb olur. Layihədə məhz kənd təsərrüfatı fəaliyyətinə mane olan, istehsal məqsədlərinə xidmət etməyən yaşıllıqların götürülməsi ilə bağlı dəyişikliklər ehtiva edilir.

Müzakirələrdə çıxış edən deputatlar Qüdrət Həsənquliyev, Bəhruz Məhərrəmov, Bəxtiyar Əliyev, Azər Badamov, Asif Əsgərov, Əziz Ələkbərov, Erkin Qədirli fikirlərini və təkliflərini səsləndiriblər. Komitə sədrləri Tahir Rzayev və Sadiq Qurbanov millət vəkillərinin qaldırdıqları məsələlərə münasibət bildiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Hüquq siyasət və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Komitə sədri ötən il ölkə Prezidenti tərəfindən təqdim edilmiş "Diplomatik xidmət haqqında" qanunun qəbul edildiyini, bir müddət sonra isə "Dövlət qulluğu haqqında" qanuna müvafiq dəyişikliklərin edildiyini nəzərə çatdırıb. Bildirilib ki, təqdim olunan qanun layihəsində yuxarıda adıçəkilən qanunlarla dövlət qulluğuna xitam verilməsinin əsasları, bu zaman dövlət qulluqçusuna və onun vərəsələrinə dövlət məvacibinin hesablanıb ödənilməsi, dövlət qulluqçularının əməyinin ödənilməsi sisteminin yenidən formalaşdırılması istiqamətində edilən dəyişikliklərə uyğun olaraq diplomatik xidmətin xüsusiyyətləri nəzərə alınmaqla "Diplomatik xidmət haqqında" qanunda da müvafiq dəyişikliklərin edilməsi təklif edilir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini söylədikdən sonra, qanun layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Ermənistanın uzun müddət "təhlükəsizlik qarantı" hesab etdiyi dövlətlə münasibətlərinin pisləşməsi rəsmi İrəvanı alternativ "ağa" axtarışına sövq edib. İllər boyu Rusiyanın hərbi-siyasi çətiri altında sığınacaq tapan İrəvan hazırda Fransanın simasında özünə yeni "hami" tapmaq xülyasına düşüb. Təbii ki, Fransanın Ermənistana artan dəstəyi, hərbi texnika tədarükü, diplomatik müstəvidəki canfəşanlığı Parisin regionda möhkəmlənmək, İrəvan üzərindən öz maraqlarını təmin etmək istəyindən xəbər verir.



# Zəngilandan verilən mesajlar

## Prezident İlham Əliyevin diktə etdiyi reallıqları Ermənistanın "ağa" axtarışı və Fransanın manipulyasiyaları dəyişmək gücündə deyil

Bu yanaşma Ermənistanın müstəqil xarici siyasət yürütmək qabiliyyətinin nə qədər zəif olduğunu, hər zaman xarici güclərin alətinə çevrilmə riski daşıdığını əyani şəkildə büruzə verir. Tarixi təcrübə göstərir ki, regiondan kənar güclərin Cənubi Qafqazda öz maraqlarını reallaşdırmaq üçün "vəkil" dövlətlərdən istifadə etməsi həmin ölkəyə əmin-amanlıq yox, ancaq fəlakət gətirir. Təəssüf ki, başı daşdan-daşa dəyən Ermənistan tarixin acı dərslərindən nəticə çıxarmaq istəmir.

Fransanın Ermənistan vasitəsilə reallaşdırmağa çalışdığı məqsədləri rəsmi Parisin ənənəvi neokolonialist siyasətinin yeni təzahürü kimi qiymətləndirilir. Afrika qitəsindəki müstəmləkəçi mövqelərini sürətlə itirən Fransa öz geosiyasi nüfuzunu bərpa etmək üçün Ermənistanı bir alətə çevirərək regionda gərginliyi artırmaq yolunu seçib. Bu prosesdə Ermənistanın "protektorat" axtarışı Fransanın bölgədə hərbi-siyasi iştirakını təmin etmək üçün münbit şərait yaradır. Lakin bu yanaşma beynəlxalq müstəvidə də ciddi tənqidlərlə qarşılaşır. Xüsusilə BMT-nin neokolonializmin fəsadlarına dair hesabatları və bu sahədə qlobal müstəvidə fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupunun son bəyanatları Fransanın maskalanmış siyasətini ifşa edir.

Prezident İlham Əliyev mayın 10-da Zəngilan sakinləri ilə görüşü zamanı səsləndirdiyi fikirlər "vasitəçilik" imitasiyası ilə məşğul olmaq istəyən Fransanın məkrli ambisiyalarının rəsmən süquta uğramasının bəyanı idi. Dövlətimizin başçısı qətiyyətlə bildirdi ki, hazırda bölgədə hökm sürən sülhün əsl müəllifi məhz Azərbaycandır və bu, ölkəmizin iradəsi sayəsində mümkün olub. Ermənistanın xarici havadarlarının köməyi ilə yaratmağa çalışdığı "qəhrəmanlıq" mifi isə bir illüziyadır: "Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər".

Azərbaycan Prezidenti vurğulayıb ki, Ermənistanın arxasında duranlar 2020-ci ildə real kömək etmək iqtidarında deyildilərsə, bu gün nümayiş etdirdikləri canfəşanlıq sadəcə daxili auditoriyaya hesablanmış siyasi manipulyasiyadır: "Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur. Onların da işi-gücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi guya ki, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər. Bizim Ermənistanı məhv etmək niyyətimiz yox idi, Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi".

Dövlətimizin başçısının qeyd etdiyi kimi, Fransa Prezidenti Emmanuel Makron öz hakimiyyətinin ən böyük böhranlarından birini yaşayır. Reytinq göstəricilərinin rekord səviyyədə aşağı düşməsi onun siyasi legitimliyi ətrafında ciddi suallar yaradır. Fransada keçirilən son rəy sorğuları Makrona olan etimadın 20 faiz civarında, bəzi dövrlərdə isə daha aşağı həddə olduğunu göstərir. Bu da fransızların böyük əksəriyyətinin onun yürütdüyü kursu dəstəkləmədiyinə dəlalət edir.

Xüsusilə pensiya islahatları və iqtisadi çətinliklər fonunda parlamentdən yan keçməklə qərarların qəbul edilməsi Makronun avtoritar üsullara əl atan və xalqın iradəsinə zidd gedən rəhbər kimi qavranılmasına səbəb olub. Bu vəziyyət Makrona öz ölkəsində faktiki olaraq siyasi legitimlikdən məhrum bir başçı statusu qazandırıb. Seçicilərin böyük bir hissəsi artıq onu xalqın maraqlarını deyil, müəyyən elitar qrupların və qlobal mərkəzlərin maraqlarını təmsil edən bir fiqur kimi görür. Görünür, elə daxildəki bu zəiflik və xalqın nifrəti Makronu beynəlxalq arenada, xüsusilə Cənubi Qafqaz kimi regionlarda daha aqressiv və diqqəti yayındıran xarici siyasət yürütməyə sövq edir. Lakin öz ölkəsində idarəetməni itirmək həddinə çatan bir uğursuz rəhbərin başqa coğrafiyalarda "nizam yaratmaq" və ya "hamilik" iddialarına düşməsi absurddur.

Bölgədəki gərginliyi süni şəkildə saxlamağa çalışan Avropa İttifaqının müşahidəçilərinin fəaliyyəti də Prezident İlham Əliyevin çıxışında sərt tənqid olunub. Dövlətimizin başçısı bəyan edib ki, bu missiyanın guya Ermənistanı Azərbaycandan qoruduğu barədə formalaşdırılan rəy cəfəngiyyatdan ibarətdir. Prezident İlham Əliyev açıq şəkildə qeyd edib ki, Azərbaycan öz strateji hədəflərinə artıq nail olub və bizim heç bir ölkənin müstəqilliyinə və ya ərazisinə qəsd etmək niyyətimiz yoxdur: "Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə".

Dövlətimizin başçısının çıxışında yer alan "biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq" ifadəsi həm Aİ missiyasının hərbi-siyasi acizliyini, həm də onların bölgədəki varlığının simvolik və manipulyativ xarakter daşıdığını göstərir. Əslində, bu müşahidəçilərin məqsədi "Ermənistanı qorumaq" yox, Qərb dairələrinin regiona nüfuz etməsinə şərait yaratmaqdır. O baxımdan, Azərbaycanı "təcavüzkar" kimi qələmə vermək və guya bu missiya sayəsində Ermənistanın xilas edildiyi barədə rəy yaratmaq cəhdləri tamamilə əsassızdır. Bu gün Ermənistanı məhz elə Fransa kimi ölkələrdən qorumaq lazımdır.

Prezident İlham Əliyevin Zəngilandan verdiyi mesajlar həm də Ermənistan cəmiyyətinə ciddi xəbərdarlıq xarakteri daşıyır. Ermənistanın siyasi müstəvisində revanşist və nifrət dolu ideyalarla yaşayan dairələrin hələ də mövcudluğu regionun gələcək sabitliyi üçün əsas risk faktorudur. Dövlətimizin başçısının diqqətə çatdırdığı kimi, əgər bu qüvvələr yenidən hakimiyyətə gələrək təxribatlara yol verərlərsə, bu, ilk növbədə, Ermənistan xalqının özü üçün faciəvi nəticələrə səbəb olacaq: "Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax o zaman Ermənistan xalqının başı dərddə olacaq".

Məlum olduğu kimi, bir neçə gün əvvəl İrəvanda səfərdə olan E.Makron Ermənistandan quru sərhədlə Türkiyəyə keçmək niyyətinə düşüb. Lakin Ankara onun növbəti təxribatçı addımına imkan verməyib. Bu cəhdin özü rəsmi Parisin regiondakı siyasi reallıqlardan nə qədər uzaq olduğunu və süni şou yaratmaq istəyini bariz şəkildə nümayiş etdirir. Düzdür, Türkiyədə bəzi dairələr bu sərsəm ideyanı "yumşalma" və "jest" adı altında dəstəkləyərək, onun gələcək fəsadlarını düzgün qiymətləndirə bilməyiblər. Lakin bu spekulyativ arzu Prezident İlham Əliyevin və Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın nümayiş etdirdiyi qətiyyətli və sarsılmaz iradə nəticəsində iflasa uğrayıb. Fransanın quru sərhədi üzərindən qurmağa çalışdığı siyasi şou uğursuzluqla nəticələnib.

Azərbaycan və Türkiyə liderləri bir daha sübut ediblər ki, regionda hər hansı kommunikasiya xəttinin açılması və ya sərhədlərlə bağlı qərarların qəbulu kənar güclərin təzyiqi, yaxud arzusu ilə yox, birbaşa milli maraqlar və Bakı-Ankara ortaq razılığı əsasında baş tuta bilər. Bu hadisə həm də regiondakı yeni geosiyasi reallıqların, Şuşa Bəyannaməsi ruhunun diktə etdiyi qaydaların hər kəs tərəfindən qəbul edilməli olduğunun növbəti xəbərdarlığı oldu. Azərbaycan-Türkiyə tandemi təkcə iki ölkənin maraqlarını deyil, bütövlükdə Avrasiya məkanının təhlükəsizlik və iqtisadi arxitekturasını müəyyən edən əsas amildir. Regionda kənar güclərin, xüsusilə neoimperialist ambisiyalarla çıxış edən dairələrin planları məhz bu polad kimi möhkəm birliyin qarşısında iflasa məhkumdur.

Azərbaycan Prezidenti İlham Əliyevin Zəngilan şəhərində səsləndirdiyi fikirlər ölkəmizin son onilliklərdə keçdiyi tarixi yolun, həyata keçirilən uzaqgörən xarici siyasətin, regionda formalaşan yeni geosiyasi reallıqların mahiyyətini bir daha ortaya qoydu. Ən əsası isə dövlətimizin başçısının nitqi ölkəmizin hərbi-siyasi zəfərinin daimi xarakter daşıdığını, regionun yeni xəritəsinin artıq cızıldığını, kənar güclərin bölgəyə sızmasına heç vaxt imkan verilməyəcəyini bütün dünyaya bəyan etdi.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Cənubi Qafqazda sülhün təşəbbüskarı da, qarantı da Azərbaycandır

Müharibələrdə tarix yazılır, sülhü isə qaliblər və məsuliyyətli dövlətlər yaradır. Bu gün Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıq da məhz bu həqiqəti təsdiqləyir. 30 ilə yaxın işğalın, ikili standartların, nəticəsiz beynəlxalq platformaların və saxta vasitəçilik missiyalarının fonunda regionda davamlı sülh üçün real yol xəritəsini ortaya qoyan məhz Azərbaycan dövləti oldu. Bu bir həqiqətdir ki, bu gün Azərbaycan təkcə öz ərazi bütövlüyünü bərpa edən ölkə kimi deyil, həm də postmüharibə mərhələsində sülh gündəliyini müəyyən edən siyasi mərkəz kimi çıxış edir.

Cənubi Qafqazda yaranan reallıqlar heç də təsadüfən formalaşmayıb. Bu reallıqların arxasında güclü dövlətçilik ənənəsi, uzaqgörən siyasi kurs və milli iradə dayanır. Məhz bu siyasi xəttin ən parlaq təzahürü Prezident İlham Əliyevin mayın 10-da Zəngilana etdiyi səfər zamanı bir daha nümayiş olundu. Bu səfərin xüsusi rəmzi mənası var idi. Səfər müasir Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin doğum günündə baş tutdu. Dövlətimizin başçısının işğaldan azad edilmiş torpaqlarda xalqla bir araya gəlməsi, əslində, tarixin, siyasi iradənin bir nöqtədə birləşməsi idi. Zəngilan sakinləri ilə görüşdə Prezident İlham Əliyev vurğulamışdır: "Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Onun ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunması idi". Bu fikir sadəcə tarixi xatırlatma deyildi, eyni zamanda siyasi varisliyin, milli məsuliyyətin və dövlətçilik iradəsinin açıq nümayişi idi.

Zəngilan bu gün Azərbaycanın gələcəyə baxışının, regionun iqtisadi xəritəsini yenidən yazmaq gücünün simvoluna çevrilib. Burada həyata keçirilən "ağıllı kənd", "ağıllı şəhər", müasir logistika, enerji və yaşayış layihələri göstərir ki, ölkəmiz müharibədən sonra dünyaya yeni inkişaf modeli təqdim edir. Prezident İlham Əliyev sakinlərlə görüşündə bildirmişdir: "Zəngilanı Azərbaycanın və bütövlükdə regionun nəqliyyat mərkəzlərindən birinə çevirəcəyik". Bu mesaj məsələnin əsas geosiyasi mahiyyətini dərk etməyə kömək edir. Bu gün Zəngilan regionun iqtisadi və strateji arteriyalarının kəsişdiyi nöqtədir. Buradan keçəcək kommunikasiya xətləri, dəmir yolları və Zəngəzur istiqamətində açılacaq yeni nəqliyyat imkanları regionun gələcəyini müəyyən edən əsas faktorlardandır.

Bütün bu lahiyələrin reallaşması üçün isə ilk növbədə regionda davamlı sülhə nail olmaq vacibdir. Bu gün regionda ən mühüm siyasi həqiqətlərdən biri budur - Azərbaycan sülh istəyir. Amma bu sülh bəzi dairələrin nümayiş etdiyi saxta konfranslar, şou xarakterli forumlar, siyasi manipulyasiya platformaları vasitəsilə yox, real siyasi iradə və konkret addımlarla həyata keçirilir. Müharibədən sonra Ermənistana sülh sazişi layihəsini təqdim edən ilk tərəf Azərbaycan oldu. Kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası, regional əməkdaşlıq platformalarının yaradılması kimi təşəbbüslərin müəllifi də məhz rəsmi Bakıdır.

Prezident İlham Əliyev Zəngilandan bir daha açıq bəyan etdi: "Ermənistanı məhv etmək və ya onun müstəqilliyini əlindən almaq kimi məqsədimiz olmayıb. Biz məqsədimizə nail olmuşuq". Bu bəyanat Azərbaycanın regionda siyasi sabitlik və davamlı təhlükəsizlik istəyini ortaya qoyur. Lakin bir həqiqət də var ki, bölgədə sülhün tam bərqərar olmasını istəməyən dairələr hələ də mövcuddur. Son günlər Ermənistanda keçirilən bəzi siyasi forumlar, "təhlükəsizlik konfransları" və xarici nümayəndələrin iştirakı ilə təşkil olunan tədbirlər bu mənada diqqətdən yayınmır. Xüsusən Fransa və bu dövlətin himayəsində olan bəzi siyasi dairələrin regionda nümayiş etdirdiyi yanaşma obyektivlikdən çox, geosiyasi maraqlara xidmət edir. Fransa Prezidenti Emmanuel Makronun son illər sərgilədiyi mövqe bölgədə balans yaratmaqdan daha çox bəzi revanşist dairələrə siyasi stimul vermək məqsədi daşıyır.

Bu məqamda qeyd etmək yerinə düşər ki, hazırda Ermənistan-Azərbaycan şərti sərhədində fəaliyyət göstərən Avropa müşahidə missiyasının davranışları artıq "müşahidəçilik" çərçivəsindən çıxaraq siyasi təzyiq və geosiyasi manipulyasiya alətinə çevrilib. Ermənistan ərazisindəki bu missiyanın fəaliyyəti bölgədə etimad mühitinin formalaşmasından çox yeni gərginlik ocaqlarının yaradılmasına xidmət edir. Məsələnin ən diqqətçəkən tərəfi isə odur ki, bu destruktiv prosesə görə məsuliyyət yalnız xarici dairələrin üzərinə düşmür. Burada birbaşa siyasi məsuliyyət daşıyan tərəflərdən biri də məhz Ermənistan hakimiyyətidir. Çünki bu missiyanın fəaliyyət müddətinin uzadılmasına, onun sərhəd boyunca daha geniş manevr imkanları əldə etməsinə razılıq verən və müvafiq öhdəliklərə imza atan tərəf elə İrəvanın özüdür.

Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycanla münasibətlərin normallaşması istiqamətində diplomatik təmasların intensivləşdiyi, regionda sülh müqaviləsinin imzalanması üçün real tarixi imkanların yarandığı bir mərhələdə bu cür təxribatçı addımlar heç bir məntiqə sığmır. Əksinə, bu kimi davranışlar sülh prosesinin ləngiməsinə, bölgədə süni qarşıdurma mühitinin saxlanılmasına xidmət edir.

Prezident İlham Əliyevin Zəngilandan verdiyi qətiyyətli mesajların əsas mahiyyəti də məhz bundan ibarət idi - Azərbaycan sülh istəyir, amma bu sülh xarici dairələrin ikili standartları, siyasi oyunları və saxta müşahidə missiyalarının diktəsi ilə deyil, region dövlətlərinin qarşılıqlı hörmətə və beynəlxalq hüquqa söykənən iradəsi ilə qurulmalıdır. Dövlətimizin başçısı bir daha bəyan etdi: "Avropanın guya müşahidəçiləri oradadır. Elə göstərirlər ki, guya Ermənistanı bizdən qoruyurlar. Buna ehtiyac yoxdur".

Dövlətimizin başçısının bu fikirləri, əslində, bölgədə xarici müdaxilələrin mahiyyətini açır. Azərbaycan yaxşı anlayır ki, bəzi qüvvələr Cənubi Qafqazda sülhün yerli təşəbbüslərlə deyil, kənar idarəetmə mexanizmləri ilə formalaşmasını istəyirlər. Amma artıq bu mərhələ geridə qalıb. Bir vaxtlar regionda formalaşdırılmış status-kvo, işğalı legitimləşdirməyə çalışan beynəlxalq dairələr, nəticəsiz vasitəçilik institutları artıq tarixə çevrilib. Azərbaycan 44 günlük Vətən müharibəsində təkcə hərbi qələbə qazanmadı, eyni zamanda iki əsrə yaxın formalaşdırılmış geosiyasi ədalətsizlik modelini darmadağın etdi. Vaxtilə regionun taleyi xarici mərkəzlərdə müzakirə edilirdisə, bu gün birmənalı olaraq Prezident İlham Əliyevin mövqeyi ilə hesablaşılır. Azərbaycanın siyasi çəkisi, diplomatik nüfuzu və hərbi gücü artıq beynəlxalq münasibətlər sistemində qəbul edilən reallıqdır. Prezident İlham Əliyev Zəngilanda bunu bir daha vurğuladı: "Bu gün Azərbaycanın beynəlxalq nüfuzu və hörməti ən yüksək səviyyədədir. Bunun səbəbi ləyaqətli siyasətimiz, sözümüzlə əməlimizin üst-üstə düşməsidir".

Artıq regionda geosiyasi marağı olan dövlətlər də qəbul etməlidirlər ki, Cənubi Qafqazda yeni dövrün müəllifi Azərbaycandır. Regionun gələcəyini konfrans salonlarında səslənən populist çıxışlar yox, Şərqi Zəngəzurda və Qarabağda çəkilən yollar, qurulan şəhərlər, geri qayıdan insanlar və yaradılan yeni iqtisadi imkanlar müəyyən edir.

Zəngilan artıq bir şəhərdən daha böyük məna daşıyır. O, Azərbaycanın siyasi iradəsinin, iqtisadi qüdrətinin və sülh strategiyasının ünvanıdır. Bu gün Cənubi Qafqazda hər kəs anlayır ki, sülhün taleyi rəsmi Bakının əlindədir. Çünki bu regionda sülh haqqında ən çox danışan yox, sülh üçün ən çox iş görən dövlət varsa, o da Azərbaycandır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Minsk qrupunun iflası ikili standartlara vurulmuş zərbədir

Azərbaycanın müasir diplomatiya və hərb tarixini həm də dünya miqyaslı ədalətsizliyə, ikili standartlara və "dondurulmuş münaqişə" stereotiplərinə qarşı təkbaşına mübarizənin salnaməsi kimi xarakterizə etməliyik. Ötən müddətdə ölkəmiz sübut etdi ki, milli maraqlar naminə nümayiş etdirilən sarsılmaz iradə və hərbi-siyasi güc, ən mürəkkəb beynəlxalq təzyiq mexanizmlərindən belə daha üstündür. Uzun illər boyu ATƏT-in Minsk qrupu (MQ) vasitəsilə Azərbaycan xalqının iradəsinin əksinə olaraq torpaqlarımızın işğalının əbədiləşdirilməsinə cəhd edilsə də, prezident İlham Əliyevin qətiyyətli siyasəti bu çirkin planları alt-üst etdi.

Dövlətimizin rəhbəri cari il mayın 10-da - Ulu Öndərin doğum günündə Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə keçmiş Minsk qrupunun riyakarlığını bir daha xatırlatdı: "İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi. Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi".

Azərbaycan Prezidenti əlavə etdi ki, o ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir: "Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər".

### 28 il fəaliyyət, "0" nəticə

1992-ci ildən fəaliyyətə başlayan Minsk qrupu, münaqişəni həll etmək mandatına sahib olsa da, 28 il ərzində onun fəaliyyəti "sıfır" nəticə ilə yadda qaldı. Həmsədrlər Ermənistanın təcavüzkar siyasətinə göz yumurdu. BMT TŞ-nin məlum dörd qətnaməsinin icrasını təmin etmirdilər.

Onların fəaliyyət fəlsəfəsi münaqişəni ədalətli həll etmək yox, Azərbaycanı mövcud vəziyyətlə, yəni işğal faktı ilə barışdırmaq idi. Tez-tez təkrarlanan "münaqişənin hərbi həlli yoxdur" tezisi, əslində, Ermənistanın işğalçılıq siyasətinə verilən diplomatik zəmanət idi. Həmsədrlərin gözü qarşısında məscidlərimiz dağıdılır, qeyri-qanuni məskunlaşma aparılır və milli sərvətlərimiz talanırdı. Lakin MQ-nin həmsədrləri sadəcə bölgəyə "turist səfərləri" ilə kifayətlənir, müstəmləkə təfəkkürü ilə Azərbaycanı güzəştə sövq etməyə çalışırdılar. Hətta bir vaxtlar "Şimali Qarabağ" terminini ortaya atmaqla işğalı leqallaşdırmağa cəhd etmələri bu qurumun əsl çirkin niyyətini üzə çıxarırdı.

Azərbaycan tərəfi illərlə səbir nümayiş etdirərək münaqişənin sülh yolu ilə həll olunmasına çalışdı, ancaq Minsk qrupunun fəaliyyətsizliyi savaşı qaçılmaz etdi. Nəticədə Cənubi Qafqazda yeni reallıqlar formalaşdıran ölkəmiz bütün ərazilərində bayrağını dalğalandırdı, suverenliyini təmin etdi. Tarixin, ədalətin, beynəlxalq hüququn öz yerini tapması kimi də tövsif olunacaq qələbələri ilə Azərbaycan bütün bu sadalananlarla bağlı üzərinə götürdüyü missiyanı onilliklər ərzində həyata keçirməyən Minsk qrupunun da fəaliyyətinə de-fakto son qoydu.

İkinci Qarabağ müharibəsindən sonra 12 dekabr 2020-ci ildə Bakıya gələn həmsədrləri qəbul edərkən dövlət başçısı İlham Əliyevin səsləndirdiyi fikirlər, əslində, diplomatik şillə idi: "BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü öz imkanlarından, potensialından istifadə edə bilmədi ki, ermənilər çıxmağa məcbur olsun. Hətta bəzi ərazilərdən çıxara bilmədi. Onlar bacarmadı, yoxsa istəmədi? Bu, açıq sual olaraq qalır... ...Tez-tez sizdən və rəhbərlərinizdən, eləcə də yüksəkrütbəli rəsmilərinizdən eşidirdim ki, münaqişənin hərbi həlli yoxdur. Mən isə deyirdim: Var! Tarix göstərdi ki, mən haqlı idim".

Daha sonra Prezident İlham Əliyev onlara 28 illik imitasiyanın başa çatdığını və Azərbaycanın öz taleyini öz əlinə aldığını bu sözlərlə bir daha elan etdi: "Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var".

### Bakının diplomatik uğuru

Azərbaycanın hərbi zəfəri Minsk qrupunu de-fakto ləğv etmişdisə, 2025-ci ilin tarixi qərarları bu prosesi de-yure də tamamladı. Vətən müharibəsi bitdikdən sonra Azərbaycan iki ölkə arasında münasibətlərin normallaşması üçün qarşı tərəfə beynəlxalq hüququn norma və prinsiplərinə cavab verən 5 baza prinsip təqdim etdi. Ancaq Ermənistanın qeyri-konstruktivlik sərgiləməsi və üçüncü tərəflərin müdaxiləsi sülh istiqamətində hansısa irəliləyişlərin əldə olunmasına mane oldu. Bunun başlıca səbəblərindən biri İrəvanın Bakı ilə birgə ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətdən yayınması idi. Ermənistan hətta sülh müqaviləsi bağlansa belə adıçəkilən qrupun mövcudluğunu qoruyub saxlamaq, bununla gələcəkdə ölkəmizə qarşı yenidən ərazi iddiaları və digər təxribatlar üçün, belə deyək ki, siyasi zəmin hazırlamaq istəyirdi.

2025-ci il avqustun 8-də Vaşinqton sammitində Azərbaycan və Ermənistan xarici işlər nazirləri münaqişənin nəticələrinin aradan qaldırılması üçün vaxtilə yaradılmış ATƏT-in Minsk prosesi və əlaqədar strukturların bağlanması ilə əlaqədar birgə müraciəti imzaladılar.

Həmin il dekabrın 1-də ATƏT rəsmi olaraq Minsk prosesini başa çatdırdı və onunla bağlı strukturları ləğv etdi. Müvafiq qərar Ermənistan və Azərbaycanın ATƏT-ə birgə müraciətindən sonra 1 sentyabr 2025-ci il tarixində ATƏT-in Nazirlər Şurasında qəbul olundu. Bununla əlaqədar ATƏT-in bəyanatında bildirilib ki, bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirdi.

Minsk qrupunun de-yure ləğv edilməsi və Qarabağ məsələsinin beynəlxalq müstəvidə də tamamilə bağlanması Azərbaycan diplomatiyasının böyük uğuru oldu.

Bir sözlə, Azərbaycan 44 günlük müharibədə təkcə işğalçını deyil, həm də dünya erməniliyini, onun lobbisini və ikili standartlar üzərində qurulmuş beynəlxalq sistemi məğlub etdi. Minsk qrupu diplomatiya tarixinə riyakarlıq, utanc və müstəmləkə təfəkkürünün nümunəsi kimi keçdi.

Azərbaycan sübut etdi ki, ədalət və beynəlxalq hüquq kağız üzərində deyil, güclü dövlət iradəsi ilə bərpa olunur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Ermənistanın "himayədar" axtarışı

Fransa Prezidenti Emmanuel Makronun İrəvan səfəri, "Ermənistan-Fransa birliyi"nə həsr olunmuş təmtəraqlı tamaşalar, orada səsləndirilən yersiz fikirlər, əslində, boş bəyanatlardan başqa bir şey deyil. Mahiyyət etibarilə bu addımlar bir siyasi blef kimi xarakterizə edilməlidir.



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında deyib ki, Makronun Ermənistandan Fransanın Cənubi Qafqazdakı neokolonializm maraqlarını təmin etmək üçün bir alət kimi istifadə etdiyi gün kimi aydındır. Hakimiyyətinin qürub çağında rekord dərəcədə aşağı reytinqlə üzləşən və ölkəsində legitimliyi şübhə altına alınan Makron üçün bu, sadəcə "itirilmiş xalları" haradasa bərpa etmək cəhdidir. "Möhtərəm Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşü zamanı etdiyi çıxışında bu cür siyasi şoumenlərin hərəkətlərini çox yerində və düzgün təsvir etdi. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə Ermənistana yiyə durmadılar, onların işigücü isə boşboğazlıq olub, ona görə öz ölkələrində onların dəstək əmsalı olduqca aşağıdır. Ümumiyyətlə, bu cür liderlərin ən parlaq nümunəsi sayılan Makron və onun hakimiyyəti tarixdə nə ilə yadda qalacaq? O, hakimiyyətə gələndə hər kəsə xoş gələn, gənc və gülümsəyən bir "ümid lideri" kimi qələmə verilirdi. Lakin bu gün o, böyük bir məyusluq, daha pisi isə bir məsxərə obyektidir. Unutmayaq ki, bir siyasətçiyə nifrət edə bilərlər, onu sevə və ya hörmət edə bilərlər, lakin ona gülməməlidirlər. Çünki gülüş obyektinə çevrilmiş rəhbər dövlət üçün rüsvayçılıq, ölkənin nüfuzu üçün isə ən ağır faciə və fəlakətdir", - deyə o bildirib.

Deputat qeyd edib ki, Makronun fəaliyyəti tərəfdarlarını və müttəfiqlərini xəyal uçqununa apardı. Çünki o, ölkəsinin Afrika qitəsində ənənəvi nüfuzunu qoruya bilmədi və Fransa oradan qovuldu. Ukraynaya da şirin vədlər versə də, gözlənilən real köməyi etmədi. Görünən də odur ki, o, bunu etməyəcək də. Ermənistanda illərlə revanşist hissləri alovlandırıb İrəvanı silahla təmin etsə də, nəticə göz qabağındadır.

Keçən il ABŞ-də əldə olunan razılaşmaların Bakı və Vaşinqtonun şərtləri ilə reallaşdığını qeyd edən K.Bayramov diqqətə çatdırıb ki, həmin masada Makronun siyasətindən əsər-əlamət yox idi: "Makronun ən böyük problemi etdikləri deyil, edə bilmədikləridir: o, ölkəsinin nüfuzunu qoruya bilmədi, ilk növbədə, fransızların özünü məyus etdi. Makron və Paşinyanın İrəvandakı "qardaşlıq" nümayişi keyfiyyətsiz bir tamaşaya bənzədi, imzalanan sənədlər isə heç kimi təəccübləndirmədi. Strateji məqam artıq əldən verilib. Bu gün Cənubi Qafqazda, xüsusilə kommunikasiyaların açılması kimi fundamental məsələdə Qərbin əsas təmsilçisi Fransa deyil, ABŞ-dir. Ən önəmli fakt isə budur ki, regionda Qərb tərəfdaşlarını seçmək və onlara "yaşıl işıq" yandırmaq hüququ Ermənistana deyil, müstəsna olaraq Azərbaycana məxsusdur. Rəsmi Paris bu dərsi artıq mənimsəyib. İrəvanın Fransanın nüfuzunu buralarda möhkəmləndirmək cəhdləri iflasa uğradı. Çünki Bakı öz oyun qaydalarını diktə etdi və İrəvan bu şərtləri qəbul etmək məcburiyyətində qaldı. Beşinci Respublika üçün hazırda Ermənistanla "strateji münasibətlər" qurmaq prioritet deyil. Fransanın iqtisadi vəziyyəti olduqca ağırdır və Paris öz investisiyaları hesabına Ermənistan iqtisadiyyatını dirçəltmək niyyətində deyil. Görünən odur ki, Emmanuel Makronun Ermənistan səfəri sadəcə sevdiyi simvolik jestlərdən biridir. O, genişmiqyaslı layihələr üçün deyil, yalnız daxili reytinqini xilas edəcək müvəqqəti mənzərələr yaratmaq üçün orada idi".

Deputat vurğulayıb ki, Ermənistanın son illərdə Rusiya ilə strateji müttəfiqlik münasibətlərindən uzaqlaşaraq Qərbə, xüsusilə də Fransaya meyillənməsi onun xarici siyasətində ciddi bir transformasiya dövrünün göstəricisidir. Onilliklər boyu təhlükəsizlik arxitekturasını tamamilə Moskvanın üzərində quran İrəvan, hazırda bu asılılığın yaratdığı boşluğu Parisin hərbi-siyasi dəstəyi ilə doldurmağa çalışır. Lakin bu keçid Ermənistanın suveren qərarlar vermək qabiliyyətindən deyil, daha çox bir "himayədar"dan digərinə sığınmaq ehtiyacından qaynaqlanır ki, bu da ölkənin hələ də müstəqil siyasət yürütmək potensialının aşağı olduğunu nümayiş etdirir. Fransanın Ermənistana göstərdiyi diplomatik dəstək və silah tədarükü ilə bağlı vədləri İrəvan tərəfindən böyük ümidlə qarşılansa da, reallıqda bu addımlar regionun geosiyasi mənzərəsini dəyişmək gücünə malik deyil. Parisin Cənubi Qafqazdakı maraqları daha çox daxili auditoriyaya, erməni lobbisinə və Avropa İttifaqı daxilindəki nüfuz mübarizəsinə hesablanıb. Ermənistan rəhbərliyi isə Fransanı yeni bir "təhlükəsizlik çətiri" kimi qəbul edərək, əslində, özünü daha mürəkkəb bir geosiyasi qarşıdurmanın poliqonuna çevirir. Bu vəziyyət Ermənistanın xarici siyasətinin situativ və reaktiv xarakterini, strateji uzaqgörənlikdən məhrum olduğunu bir daha sübut edir.

K.Bayramov qeyd edib ki, nəticə etibarilə, Ermənistanın Rusiya asılılığından qurtulmaq cəhdlərinin alternativ asılılıq formaları ilə əvəzlənməsi ölkənin dövlətçilik maraqlarına uzunmüddətli perspektivdə ciddi fayda vermir: "Müstəqil siyasət yürütmək bacarığının olmaması İrəvanı regiondakı cari reallıqlardan uzaqlaşdırır və qonşu dövlətlərlə konstruktiv dialoq qurmaq əvəzinə, kənar güclərin Cənubi Qafqazdakı alətinə çevrilmək riskini artırır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Slovakiya Milli Şurasının sədri ölkəmizə səfərə gəlib




Mayın 12-də Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşi ölkəmizə rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı və onun rəhbərlik etdiyi nümayəndə heyətini Milli Məclisin Sədr müavini Musa Qasımlı, Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov, Slovakiyanın Azərbaycandakı səfiri Elçin Qasımov və protokol əməkdaşları qarşılayıblar.

# Neokolonializm nədir və Fransa modeli Ermənistanda necə işləyir?

Paris Cənubi Qafqazda öz təsir imkanlarını genişləndirməyə çalışır. Afrika və Yaxın Şərqdə təsir imkanlarını müəyyən qədər itirən Fransa yeni geosiyasi aktivlik zonaları axtarır. Ermənistan isə bu baxımdan Fransa üçün həm geosiyasi, həm də simvolik platformaya çevrilir.

Müasir neokolonializm klassik müstəmləkəçilikdən fərqlənir. Artıq birbaşa işğal və hərbi mövcudluq əsas alət deyil. Əvəzində təhlükəsizlik, maliyyə mexanizmləri ilə asılılıq yaratmaq, siyasi elitaya təsir etmək və onun həlledici qərarvermə prosesində yönləndirmək əsas vasitələrə çevrilib. Bu ikitərəfli təzyiq və nüfuzetmə ilə yanaşı, beynəlxalq institutlar vasitəsilə yönləndirmə və nəticədə informasiya təsiri və diplomatik təzyiq altında saxlamaq da özünü göstərir. Fransanın Ermənistan siyasətində də bu elementlər görünür.

Makronun "Sülh ritorikası" ilə hərbiləşmə siyasəti arasında ciddi ziddiyyət var. Makron Ermənistanın "Rusiyanın peykindən Avropaya dönüşünü" faktiki olaraq "yeganə düzgün seçim" kimi təqdim edir. Bu isə regionu çoxtərəfli əməkdaşlıq məkanından daha çox geosiyasi bloklaşma zonasına çevirir. Başqa sözlə, Ermənistanın suveren seçim imkanları məhdudlaşdırılır, yeni geosiyasi orbitə daxil edilməsi təşviq olunur.

Makron çıxışında Cənubi Qafqazın "imperiyalar arasında rəqabət meydanına çevrilməməli olduğunu" bildirsə də, Fransanın son illərdə bölgədə atdığı addımlar tam əks mənzərə yaradır. Paris Ermənistanla hərbi əməkdaşlığı genişləndirir, onu Qərb-Rusiya qarşıdurmasının ön xəttinə yaxınlaşdırır və regionda balanslı tərəfdaş olmaqdan daha çox ədalətsiz tərəf kimi davranır. Bu isə Fransa siyasətinin neo-kolonial xarakter daşıdığı barədə fikirləri gücləndirir.

Əslində, əsas sual bundan ibarətdir: Fransanın Ermənistanda qurduğu nüfuz infrastrukturunun mahiyyəti nədir? Bu siyasət Cənubi Qafqazı yeni imperial rəqabət məkanına çevirirmi? Və bütün bunların Ermənistanın özü üçün hansı riskləri var?

Makronun çıxışındakı ən diqqətçəkən element onun Ermənistanla münasibəti təsvir etdiyi dildir. O, açıq şəkildə bəyan edir ki, Fransa Ermənistanın silahlı qüvvələrinə təlim keçirir, Ermənistanı silahlandırır və hərbi məsləhətlər verir. Eyni zamanda Fransa İnkişaf Agentliyi vasitəsilə Ermənistana yönələn maliyyə dəstəyinin həcminin 800 milyon avroya çatdırıldığı vurğulanır. Bu, sadəcə iqtisadi və ya diplomatik əməkdaşlıq deyil, daha geniş geosiyasi nüfuz sisteminin qurulması təsiri bağışlayır.

Makronun seçdiyi "biz formalaşdırırıq, silahlandırırıq, məsləhət veririk" kimi ifadələr münasibətləri bərabərhüquqlu tərəfdaşlıqdan daha çox himayədar və patronajdan asılı tərəf yaratmaq modeli olmasını göstərir. Bu dil klassik neoimperial yanaşmanı xatırladır. Görünən odur ki, Fransa Ermənistanı müstəqil regional aktor kimi deyil, öz təsir zonasının elementi kimi formalaşdırmağa çalışır.

Makronun çıxışında ikinci mühüm məqam Ermənistanın "Rusiyanın peykindən" Avropaya dönüşünü "yeganə ağlabatan seçim" kimi təqdim etməsidir. Diplomatik ritorikada bu cür ifadələr nadir hallarda işlədilir. Çünki belə tezis mahiyyət etibarilə regionu ikiqütblü geosiyasi qarşıdurma məkanına çevirir və çoxşaxəli, balans siyasətini mümkünsüz göstərir.

Əsl paradoks isə ondadır ki, Makron bir tərəfdən Azərbaycan və Türkiyə ilə dialoqun vacibliyindən danışır, digər tərəfdən isə Ermənistanın hərbi potensialının artırılmasını prioritet kimi təqdim edir. Halbuki revanşist əhvali-ruhiyyənin hələ də müəyyən dairələrdə güclü olduğu Ermənistanda bu cür ziddiyyətli mesajlar sabitlik yaratmır, əksinə, yeni risklər formalaşdırır.

Makronun neoimperial siyasətinin başqa bir göstəricisi də odur ki, o, Paşinyan hakimiyyətinin geosiyasi kursunu daxili siyasi seçimdən daha çox xaricdən istiqamətləndirilən transformasiya kimi təqdim edir. Bu isə Ermənistanın suveren qərarvermə imkanlarının zəif olması barədə suallar doğurur.

Fransa prezidentinin Ermənistan məsələsində bu qədər fəal görünməsinin səbəblərindən biri də daxili siyasi amillərlə bağlıdır. Son illərdə Makron sosial etirazlarla, pensiya islahatlarına qarşı narazılıqlarla, ifrat sağın yüksəlişi və 10-15 faizə düşməklə ciddi reytinq itkisi ilə üzləşib. Belə şəraitdə xarici siyasətdə "qlobal lider" görüntüsü yaratmaq Makron üçün həm də daxili siyasi müstəvidə legitimlik alətinə çevrilir.

### Makronun "Qafqaz anı" və Simonyanın etirafları: Ermənistan hansı yol ayrıcındadır?

Bir tərəfdən Fransa Ermənistanı Qərbin geosiyasi orbitinə daha sıx bağlamağa çalışır, digər tərəfdən isə Ermənistan daxilində artıq bu siyasətin yaratdığı riskləri anlayan siyasi çevrələrin nara-



hatlığı açıq şəkildə hiss olunur. Bu mənada Fransa Prezidenti Emmanuel Makronun İrəvanda keçirilən "İrəvan dialoqu" forumunda səsləndirdiyi fikirlər və Ermənistan parlamentinin sədri Alen Simonyanın Deutsche Welle-yə verdiyi müsahibə birlikdə təhlil edildikdə, regionda formalaşan yeni geosiyasi reallığın ziddiyyətli mahiyyəti aydın görünür.

Məhz bu kontekstdə parlamentin sədri Alen Simonyanın açıqlamaları xüsusi diqqət çəkir. Onun "7 iyunda seçim sülh və müharibə arasında olacaq" fikri Ermənistan daxilində yaranmış strateji dilemma barədə açıq etirafdır. Simonyan faktiki olaraq bildirir ki, ölkə ya region dövlətləri ilə normal münasibətlər qurmalı, ya da köhnə revanşist siyasətin nəticələri ilə üzləşməlidir.

Daha mühüm məqam isə Alen Simonyanın "amorf Ermənistan" və "real Ermənistan" barədə dedikləridir. Simonyan etiraf edir ki, Ermənistan uzun illər dövlət strategiyasını real geosiyasi maraqlar üzərində deyil, keçmişin mifoloji narrativləri üzərində qurub. "100 il, 1000 il əvvəl Ermənistana aid olmuş torpaqlar" üzərindən formalaşdırılan ideologiya ölkəni inkişaf etdirmək əvəzinə onu təcriddə saxlayıb və xarici güclərin manipulyasiya obyektinə çevirib.

Bu fikirlər, əslində, Ermənistan siyasi düşüncəsində ciddi dönüşün baş verdiyini göstərir. Çünki ilk dəfə yüksəksəviyyəli erməni rəsmisi açıq şəkildə etiraf edir ki, "tarixi Ermənistan" ideologiyası ölkə üçün təhlükəyə çevrilib. Simonyanın "əks halda Ermənistan xəritədən silinə, quberniyaya çevrilə bilər" fikri isə olduqca ciddi xəbərdarlıqdır. Onun özünün də etiraf etdiyi kimi, tarixdə böyük güclərin geosiyasi oyunlarında alətə çevrilən çoxsaylı dövlətlərin aqibəti buna nümunədir.

Burada əsas təhlükə Ermənistanın "yeni Ukrayna" modelinə sürüklənməsi riskidir. Necə ki, Ukrayna uzun illər böyük güclərin rəqabət məkanına çevrildi və nəticədə dağıdıcı müharibə ilə üzləşdi, Ermənistan da oxşar geosiyasi ssenarinin elementləri ilə qarşı-qarşıyadır. Fransanın Ermənistanda həyata keçirdiyi neoimperial və neokolonial siyasət ölkəni real qarşıdurma məkanına çevirmək təhlükəsi yaradır.

Bu riskləri artıran əsas amillərdən biri də Ermənistan ərazisində müxtəlif güc mərkəzlərinin paralel şəkildə mövcudluğudur. Rusiyanın hərbi mövcudluğu hələ də qalır. Digər tərəfdən, Fransanın hərbi iştirakının intensivləşməsi, Frontex missiyasının aktivləşməsi, Avropa İttifaqı-Ermənistan yaxınlaşması regionda onsuz da həssas olan geosiyasi balansı daha da mürəkkəbləşdirir.

Makronun Rusiyanın Ermənistanı "tərk etməsi" ilə bağlı açıqlamaları da məhz bu istiqamətdə mesaj kimi qiymətləndirilə bilər. Ermənistan cəmiyyətinə "köhnə təhlükəsizlik modeli dağılıb, yeni istiqamət Qərbdir" mesajı verilir. Lakin problem ondadır ki, Qərb Ermənistan üçün real təhlükəsizlik təminatı vermir və hazırkı geosiyasi vəziyyətdə də vermək iqtidarında deyildir. Bu isə ölkəni daha riskli vəziyyətə sürükləyir.

Əslində, həm Makronun çıxışı, həm də Simonyanın etirafları bir həqiqəti ortaya qoyur: Ermənistan yol ayrıcındadır. Bir yol region dövlətləri ilə əməkdaşlıq, sərhədlərin açılması, iqtisadi inteqrasiya və "real Ermənistan" modelinə real əməldə keçiddir. Digər yol isə xarici güclərin geosiyasi qarşıdurmasının alətinə çevrilmək, revanşist narrativləri davam etdirmək və ölkəni yeni böhranlara sürükləməkdir.

Xarici güclərin neokolonial müdaxilələri isə bölgədə sabitliyi deyil, yeni parçalanma xətlərini və təhlükəli qarşıdurmaları dərinləşdirir. Cənubi Qafqazın gələcəyi yalnız region ölkələrinin qarşılıqlı hörmət və əməkdaşlığı əsasında formalaşa bilər. Azərbaycanın şanlı Zəfərimizdən sonra formalaşdırdığı yeni siyasi reallıqlar və yeni status kvo əsasında əməkdaşlıq imkanları uzun müddətli sülhə və sabitliyə hesablanıb.

Prezident İlham Əliyev tərəfindən irəli sürülən siyasi xəttin əsas istiqamətlərindən biri Ermənistan ilə münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda əməkdaşlıq mühitinin formalaşdırılmasıdır. Azərbaycan Prezidentinin sülh gündəliyi praqmatik siyasətə əsaslanır: təhlükəsizlik, enerji, iqtisadiyyat və nəqliyyat layihələri vasitəsilə qarşıdurmanı əməkdaşlıqla əvəz etmək məqsədi daşıyır. Bu yanaşma xüsusilə 2023-cü ildə Azərbaycanın tam suverenliyini bərpa etməsindən sonra daha açıq şəkildə gündəmə gətirilir və beynəlxalq birlik tərəfindən də təqdir olunur.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***

# Minsk qrupu işğalın siyasi dəstəkçisi idi

Ermənistan tarix boyu öz milli təhlükəsizliyini müstəqil şəkildə qurmayıb, müxtəlif dövrlərdə Rusiya imperiyası, SSRİ və daha sonra kollektiv təhlükəsizlik sistemləri vasitəsilə müdafiə olunub, eləcə də digər böyük dövlətlərin himayəsinə bel bağlayıb. 1988-ci ildə Qarabağ münaqişəsinin başlanması onilliklər boyu sistemli şəkildə hazırlanmış ideoloji və siyasi strategiyanın nəticəsi idi. Bu, diaspor şəbəkələri, siyasi mifologiya, xarici güclərlə əməkdaşlıq, mədəni təsir və hüquq diskursu vasitəsilə mərhələli şəkildə formalaşdırılmış irredentist layihənin məntiqi nəticəsi olan klassik hərbi işğal idi.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, 1990-cı illərin əvvəllərində Azərbaycan torpaqlarının işğalı zamanı da Ermənistan müstəqil şəkildə hərbi uğur qazanmayıb, əsasən bəzi xarici qüvvələrin dəstəyi ilə həmin işğalı reallaşdırmışdı. "Azərbaycan isə hər zaman müstəqil xarici siyasət yürüdüb və bu yolda xarici təzyiqlərə, hətta ağır itkilərə məruz qalıb. 1990-cı illərin əvvəllərində yenicə müstəqillik əldə etmiş Azərbaycanın torpaqlarının işğal olunmasına baxmayaraq, ölkəmiz kənar dövlətlərin diktə etdiyi şərtlərlə heç vaxt razılaşmayıb. Ümummilli Lider Heydər Əliyevin, daha sonra Prezident İlham Əliyevin dövründə formalaşmış ən əsas prinsip ondan ibarət idi ki, ölkənin təhlükəsizliyinin əsas qarantı elə Azərbaycan dövlətinin özü olmalıdır. Yəni ordu quruculuğu, iqtisadi güc və diplomatik siyasət daxili imkanlarla gücləndirilməlidir", - deyə o bildirib.

Deputat 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz gücü və resursları ilə BMT Təhlükəsizlik Şurasının işğalla bağlı qəbul etdiyi qətnamələrin icrasına nail olduğunu xatırladaraq deyib ki, bu, eyni zamanda ölkəmizin kənar qüvvələrin qərar və dəstəyinə yox, öz hərbi-siyasi potensialına arxalandığını göstərdi. Yeni dünya düzəni Cənubi Qafqazdan, məhz Azərbaycanın regionda yaratdığı yeni reallıqlardan başladı. Beynəlxalq hüquq və çoxtərəfliliyin artıq heç bir münaqişənin həllində rol oynaya bilmədiyi, güc faktorunun münaqişələri həll etməsi faktı təsdiqləndi. ATƏT-in Minsk qrupu kimi fəaliyyətsiz qurumlar tarixə qovuşdu. Azərbaycan tarixi Zəfər qazandı.

P.Vəliyeva qeyd edib ki, yarandığı gündən konstruktiv və ədalətli fəaliyyət göstərə bilməyən Minsk qrupu Azərbaycan ictimaiyyəti və rəhbərliyi tərəfindən dəfələrlə tənqid edilib: "ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədr ölkələr işğalın legitimləşdirilməsinə çalışmış, lakin Azərbaycan xalqı işğalla heç zaman barışmamışdı. Xarici vasitəçilərin nəticəsiz fəaliyyəti fonunda ölkəmiz müstəqil siyasət kursunu ardıcıl şəkildə gücləndirdi. Bununla da Minsk qrupunun mövcudluğuna ehtiyac tamamilə aradan qalxdı. 8 avqust tarixli Vaşinqton görüşündə Prezident İlham Əliyevin prinsipial diplomatik addımları nəticəsində Ermənistan şərtlərimizlə razılaşmağa məcbur edildi, Minsk qrupunun ləğvi təmin olundu. Bu, Azərbaycanın diplomatiya tarixində mühüm mərhələdir".

Deputat vurğulayıb ki, zəfərlə yanaşı, sülhün müəllifi də Azərbaycan, Prezident İlham Əliyevdir. Azərbaycan istəməsə, heç bir sülh mümkün deyil. Ermənistanın sülh müqaviləsinə imza atmaq üçün edəcəyi növbəti əsas addım isə konstitusiyasının preambula hissəsinə labüd dəyişiklikləri etməsidir. Bu şərt Ermənistan tərəfindən məhz 8 avqust Vaşinqton razılaşmaları zamanı qəbul edilib.

Bu gün ortaq sülh gündəliyinə zərbə vurmaq istəyənlərə Ermənistandan adekvat cavab verilmədiyini deyən P.Vəliyeva bildirib ki, regiondan kənar qüvvələr Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına sistemli şəkildə müdaxilə edir: "Cənubi Qafqazda davamlı sülhün qurulması yükünü əsasən Azərbaycan özü daşıyır. Əgər Ermənistan doğrudan da sülh istəyirsə, onda ölkə rəsmiləri Azərbaycan əleyhinə olan xarici təşəbbüslərə açıq şəkildə qarşı çıxmalıdırlar. Yəni Ermənistan yalnız sözlə deyil, praktiki şəkildə də sülhə sadiqliyini göstərməlidir. Bu gün Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanıyır, amma rəsmi İrəvan öz ərazi bütövlüyünə hörmət tələb etdiyi halda, Azərbaycanın ərazi bütövlüyünü sual altına alan fəaliyyətlərə mane olmur. Bəzi Avropa institutları, xüsusilə də Avropa Parlamenti və Fransa kimi ölkələrin siyasətçiləri neytral davranmır, birtərəfli qaydada Ermənistanı dəstəkləyirlər. Onların verdiyi bəyanatlar və qəbul etdikləri qətnamələr regionda balansı pozur, sülh və sabitliyə zərər vurur. Xüsusilə Fransa Senatında "Dağlıq Qarabağ" terminindən istifadə edilməsi, mədəni-dini irsi ilə bağlı səsləndirdiyi fikirlər təxribatdır və qəbuledilməzdir. Azərbaycanın Ermənistana qarşı hərbi planları yoxdur, ölkəmiz sülh gündəliyinə sadiqdir və siyasətində regionda əmin-amanlıq, sabitlik yaratmaq prioritetdir. Lakin xarici qüvvələr Ermənistanda seçkilər yaxınlaşdıqca mövcud normallaşma və həssas sülhə zərər vuracaq addımlar atırlar".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Ümumdünya Şəhərsalma Forumu





13-cü Ümumdünya Şəhərsalma Forumu





WORLD URBAN FORUM

# WUF-un Bakı zirvəsi

## Azərbaycan daha bir beynəlxalq tədbirə öz standartlarını tətbiq edəcək

**Azərbaycan növbəti dəfə qlobal tədbir ərəfəsindədir. Ölkəmiz mayın 17-22-də Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi edəcək. Bakı dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə evsahibliyi etməklə dünyanın diqqət mərkəzinə gələcək.**




Bu günədək 178 ölkədən 30 mindən çox şəxs sessiyada iştirak üçün qeydiyyatdan keçib və onların təxminən yarısını xarici nümayəndələr təşkil edir. Bunun özü də WUF13-ə beynəlxalq marağın yüksək göstəricisidir. Qeydiyyat prosesi isə davam edir və ona görə tədbirə qədər bu rəqəmin artacağı gözlənilir. Müqayisə üçün bildirək ki, əvvəlki Dünya Şəhərsalma forumlarında iştirakçı sayı, adətən, 17-23 min aralığında olub.

Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi son onilliklərdə artıq bir ənənəyə çevrilib. Bu gün ölkəmiz təkcə regionun deyil, bütövlükdə Avrasiya məkanının mühüm diplomatik və beynəlxalq tədbir mərkəzlərindən biri sayılır. Azərbaycanın beynəlxalq forumlara uğurla evsahibliyi edən, yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən və qlobal dialoq məkanına çevrilən dövlət kimi qəbul olunması təsadüfi tendensiya yox, gərgin, sistemli zəhmət sayəsində formalaşmış strateji reallıqdır.

Azərbaycanın bu sahədə qazandığı nüfuz, etimad, təcrübə uzun illərin ardıcıl siyasətinin nəticəsidir. Ölkəmiz son onilliklərdə bir sıra nüfuzlu beynəlxalq tədbirlərə uğurla evsahibliyi edib. Bunların arasında Bakı Humanitar Forumu, Qlobal Bakı Forumu, I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Qoşulmama Hərəkatının Zirvə Görüşü və nəhayət, dünya miqyaslı iqlim tədbiri olan COP29 xüsusi yer tutur. Bu tədbirlərin hər biri Azərbaycanın beynəlxalq nüfuzunu daha da artıraraq ölkəmizi qlobal məsələlərin müzakirə olunduğu vacib ünvanlarından biri statusunda qərarlaşdırıb. Bu həm də respublikamızın dünya diplomatiyasındakı çəkisini və multikultural dəyərlərə sadiqliyini nümayiş etdirir.

### Niyə məhz Azərbaycan?

Belə qlobal əhəmiyyətli tədbirlərə evsahibliyi ilə bağlı seçimlər zamanı məhz Azərbaycana üstünlük verilməsinin ilk səbəbi onunla bağlıdır ki, ölkəmiz coğrafi baxımdan olduqca unikal mövqeyə malikdir. Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən ölkəmiz tarix boyu sivilizasiyalar arasında körpü rolunu oynayıb. Müasir dövrdə isə bu amil Azərbaycanın nəqliyyat, enerji və diplomatik əlaqələr baxımından strateji əhəmiyyətini daha da artırır. Beynəlxalq təşkilatlar və qlobal platformalar üçün Azərbaycan müxtəlif tərəfləri bir araya gətirə bilən neytral və etibarlı məkan kimi görünür.

Digər mühüm amil ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik mühitidir. Böyük beynəlxalq tədbirlərin təşkili üçün əsas şərtlərdən biri məhz təhlükəsizlik və dayanıqlı idarəetmədir. Azərbaycan bu sahədə böyük etimad qazanıb. Dünyanın müxtəlif ölkələrindən minlərlə qonağın qatıldığı tədbirlərin problemsiz və yüksək səviyyədə keçirilməsi beynəlxalq dairələrdə ölkəmizə olan inamı tədbirdən-tədbirə daha da gücləndirir.

Azərbaycanın malik olduğu müasir infrastruktur da, təbii ki, burada xüsusi rol oynayır. Son illər Bakıda inşa edilmiş konqres mərkəzləri, nəhəng arenalar, çoxsaylı hotellər, müasir nəqliyyat infrastrukturu və rəqəmsal xidmətlər respublikamızı böyükmiqyaslı tədbirlərin keçirilməsi üçün ideal məkana çevirib. Eləcə də paytaxt Bakıda müasir memarlıqla milli koloritin vəhdəti xarici qonaqlarda zəngin təəssürat yaradır.

### Beynəlxalq dialoq və əməkdaşlıq ideyalarının təşviq edildiyi məkan

Azərbaycanın multikulturalizm və tolerantlıq siyasəti də ölkəmizin mühüm üstünlüklərindəndir. Müxtəlif dinlərin, mədəniyyətlərin və etnik qrupların sülh şəraitində yaşadığı Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq ideyalarının təşviqi baxımından nümunə kimi göstərilir. Bu səbəbdən humanitar və mədəni platformaların Bakıda keçirilməsi təsadüfi deyil. Azərbaycan fərqli baxışların qarşıdurma deyil, dialoq müstəvisində müzakirəsini təşviq edən ölkə imici qazanıb.

Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasəti də bu prosesə ciddi təsir göstərir. Ölkəmiz həm Qərb, həm Şərq, həm də islam dünyası ilə geniş əməkdaşlıq münasibətlərinə malikdir. Məhz bu balanslı yanaşma respublikamızı müxtəlif beynəlxalq platformalar üçün qəbuledilən və etibarlı tərəfdaşa çevirir.

Digər mühüm amil də xüsusi vurğulanmalıdır: bu gün beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi artıq təkcə təşkilati məsələ deyil, həm də siyasi və geostrateji seçimdir. Dünyada qütbləşmənin artdığı, beynəlxalq münasibətlər sistemində etimad böhranının yaşandığı bir dövrdə Azərbaycan dialoq, əməkdaşlıq və təhlükəsizlik məkanı kimi ön plana çıxır.

Bütün bunlar da bir daha göstərir ki, Azərbaycanın beynəlxalq tədbirlərə uğurlu evsahibliyi etməsi təsadüfi nailiyyət deyil. Bu, ölkəmizin siyasi sabitliyinin, iqtisadi inkişafının, müasir infrastrukturunun və düşünülmüş xarici siyasət kursunun məntiqi nəticəsidir. Azərbaycanın qlobal tədbirlər xəritəsində mövqeyi getdikcə güclənir və ölkəmiz artıq beynəlxalq diplomatiyanın vacib platformalarından biri kimi qəbul olunur.

2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi WUF13-ün əhəmiyyətini daha da artırır. Forum bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsidir. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması ilə WUF13 bir-birini tamamlayan iki mühüm prosesdir. Bir tərəfdən forum Azərbaycanın beynəlxalq nüfuzunu və qlobal urbanizasiya gündəliyində rolunu gücləndirir, digər tərəfdən isə ölkədə həyata keçirilən müasir şəhərsalma siyasətinin beynəlxalq miqyasda tanıdılmasına xidmət edir.

### Üstün standartlar, faydalı təşəbbüslər

Azərbaycanın bu cür mötəbər tədbirlərə evsahibliyinin bir özünəməxsus xüsusiyyəti də ondadır ki, ölkəmiz belə tədbirlərin təşkili işində yeni üstün standartlar formalaşdırır, həmçinin müxtəlif maraqlı yeniliklər gətirir. Məsələn, bu il WUF tarixində ilk dəfə keçiriləcək liderlərin bəyanatları seqmenti forumun siyasi və substantiv baxımdan belə mühüm yeniliklərindəndir. Bu cür təşəbbüslər toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyinə dəlalət edir. Əsas mövzu "Dünyanı mənzillə təmin etmək: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar"dır. Məqsəd isə mənzil böhranının həlli üçün birgə yolların formalaşdırılması və şəhərsalmanın inkişafın mərkəzinə gətirilməsi üçün siyasi dəstəyin gücləndirilməsidir. Liderlərin bu seqmentdəki çıxışları dayanıqlı şəhər inkişafı üçün yeni qlobal siyasətlərin və yerli təcrübələrin inteqrasiyasına xidmət edir.

Tədbir ərəfəsində liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 nazirlər görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq xüsusi sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlıq yüksək səviyyədə aparılmaqdadır.

WUF13 Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıyır və Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi genişmiqyaslı bərpa-quruculuq siyasətini beynəlxalq auditoriyaya təqdim etmək üçün yaxşı imkanlar yaradır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji" və dayanıqlı urbanizasiya modellərinin tətbiqi dünya üçün maraqlı təcrübə kimi təqdim olunur. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr Azərbaycanın müasir şəhərsalma konsepsiyalarının praktik tətbiqini nümayiş etdirir.

### "Yaşıl artım" və dayanıqlı inkişaf gündəliyinin fəal iştirakçısı

WUF13 həm də Azərbaycanın "yaşıl artım" və dayanıqlı inkişaf gündəliyində fəal iştirakını göstərir. Xüsusilə COP29 təcrübəsindən sonra şəhərsalma, ekologiya və iqlim məsələlərinin Bakıda müzakirə olunması ölkənin qlobal dayanıqlılıq gündəliyində rolunu daha da gücləndirir. Nəzərə alaq ki, müasir dünyamızda şəhərlər artıq təkcə yaşayış məkanı deyil, həm də iqlim təhlükəsizliyi, enerji səmərəliyi və sosial inkişafın əsas platforması hesab olunur.

Forumun iqtisadi və imic baxımından da ciddi dividendləri var. Minlərlə xarici qonağın Azərbaycana gəlməsi turizm, xidmət sektoru və beynəlxalq biznes əlaqələrinin genişlənməsinə müsbət təsir göstərir. Eyni zamanda Bakı beynəlxalq şəhərsalma, memarlıq və investisiya platforması kimi tanınır.

WUF13 Azərbaycanın həm də "yumşaq güc" siyasətinin mühüm elementidir. Belə forumlarda ölkəmizə beynəlxalq medianın diqqəti artır, Azərbaycanın müasir inkişaf modeli, multikultural mühiti və regional liderlik imkanları dünyaya sərgilənir. Bu cür tədbirlər vasitəsilə Azərbaycan təkcə enerji ixrac edən ölkə deyil, həm də qlobal ideya və dialoq platforması kimi mövqeyini möhkəmləndirir.

Nəticə etibarilə, WUF13-ə evsahibliyi Azərbaycan üçün siyasi nüfuz, beynəlxalq etimad, iqtisadi imkanlar və strateji imic baxımından çoxşaxəli əhəmiyyət daşıyır. Bu forum Azərbaycanın gələcəyin şəhərləri, dayanıqlı inkişaf və qlobal urbanizasiya proseslərində söz sahibi olmaq iddiasını nümayiş etdirən mühüm platformadır.

Əminliklə qeyd etmək olar ki, WUF13 ölkəmizin beynəlxalq tədbirlərə evsahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsi olacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# İşğaldan azad olunmuş ərazilərimizdə bu gün sabahın şəhər və kəndləri salınır

30 il ərzində düşmənin vəhşicəsinə söküb-dağıtdığı, talan etdiyi şəhər və kəndlərimiz yenidən tikilir və öz sakinlərini qarşılayır. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə budəfəki səfərində daha iki yaşayış məntəqəsinin - Cəbrayıl rayonunun Şükürbəyli kəndinin və Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk kompleksin açılışlarını edib.

Şükürbəyli Cəbrayıl rayonunun mərkəzindən 18 kilometr cənub-şərqdə, düzənlik ərazidə yerləşən bir kənddir. İşğaldan əvvəl əhalisi, əsasən, üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olub.

Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndlərinin və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla, ümumilikdə 2522 nəfərin (615 ailə) köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə 635 fərdi ev istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçündür. Evlər 2, 3, 4 və 5 otaqlıdır.

Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin təməlini dövlətimizin başçısı 2022-ci ildə qoyub və ötən dövrdə tikintini nəzarətində saxlayaraq iki dəfə burada işlərin gedişi ilə tanış olub.

Kompleksin ümumi ərazisi 2 hektardan artıqdır. Burada 12 bina inşa olunub. Onlardan 4-ü (60 mənzilli) üçmərtəbəli, 8-i (44 mənzilli) ikimərtəbəli "townhouse" tipli evlərdir. Bu kompleksin sakinləri də ailə üzvlərinin sayından asılı olaraq 2, 3, 4 və 5 otaqlı mənzillərdə yaşayacaqlar.

İstifadəyə verilən hər iki yaşayış məntəqəsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın sakinlərlə səmimi görüşləri olub. Dövlətimizin başçısı onları yurd-yuvalarına dönüş münasibətilə təbrik edib. Sakinlər isə Prezidentə və birinci xanıma öz minnətdarlıqlarını çatdırıblar. Belə ki, keçmiş məcburi köçkünlər təzə tikilən şəhər və kəndlərdə təkcə evlə təmin olunmurlar, onların sosial-məişət şəraiti, məşğulluğu üçün də tədbirlər görülür. Məsələn, Zəngilandakı yaşayış kompleksinin ərazisində uşaq və idman meydançaları, velosiped zolağı, yeraltı və yerüstü avtomobil dayanacaqları yaradılıb. Zəngilanın baş planına əsasən, yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, məktəb, körpələr evi-uşaq bağçası və parkın yaxınlığında, ortasıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

Cəbrayılın yeni istifadəyə verilən Şükürbəyli kəndində də sakinlərin rahat yaşaması və sosial məsələlərin həlli üçün bir sıra işlər görülüb. Burada hər biri 80 yerlik olmaqla 2 körpələr evi-uşaq bağçası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi və yerli icra strukturları üçün inzibati bina tikilib.

Şükürbəyli kəndində 35/10 kV-luq elektrik yarımstansiyası da inşa edilib. Elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, həmçinin internet və "İP TV" şəbəkələri qurulub, yollara asfalt çəkilib.

Elə sözügüdən səfəri çərçivəsində dövlətimizin başçısı əvvəlcə kənddə inşa edilmiş 360 şagird yerlik məktəb binasının açılışını edib. İşğaldan azad edilmiş digər ərazilərimizdə istifadəyə verilən yeni məktəblərdə olduğu kimi, bu təhsil müəssisəsində də müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb. Onların ixtiyarına fənn kabinetləri, həmçinin fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, ibtidai hərbi hazırlıq sinifləri verilib. Məktəbdə kitabxana, akt və idman zalları, yeməkxana da var.



Ərazidə, eyni zamanda futbol və basketbol meydançaları yaradılıb.

Yeri gəlmişkən, qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm bir tərkib hissəsini də müasir təhsil ocaqlarının qurulması təşkil edir. Ən yüksək standartlara cavab verən təhsil müəssisələri yeni texnologiyalarla, zəruri maddi-texniki baza ilə təchiz olunur.

Elə həmin gün, mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar. Binanın təməli 2021-ci ildə qoyulub. Ərazisi 5 hektara yaxındır. Xəstəxanada terapiya, cərrahiyyə, pediatriya, doğum, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Bundan başqa, poliklinika, şüa-diaqnostika, funksional-diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostika laboratoriyası yaradılacaq. Hazırda əsas bina ilə yanaşı, yoluxucu xəstəliklər, hemodializ və poliklinika korpusları, təcili tibbi yardım stansiyası, həmçinin Cəbrayıl Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin və digər binaların inşası davam etdirilir.

Prezidentimizin şükürbəylilərlə görüşündə dediyi kimi: "Beləliklə, bir daha bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq".

Məlum olduğu kimi, Cəbrayılda BP şirkəti 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyası inşa edir. Bu çərçivədə "AzərEnerji" tərəfindən burada 330 kV-luq rəqəmsal yarımstansiya tikilib və bu yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün "Cəbrayıl" Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur "yaşıl enerji"nin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

Bu gün Qarabağ və Şərqi Zəngəzur həm də böyük turizm destinasiyasına çevrilməkdədir. Burada artıq çoxlu sayda hotellər, istirahət mərkəzləri, parklar və seyrəngahlar yaradılıb.

Bunların sırasına tezliklə Prezident tərəfindən mayın 10-da Zəngilan şəhərində təməli qoyulan "Zangilan City Park Hotel" də qoşulacaq. Hotelin ərazisi 1,5 hektar olacaq. 116 nömrəlik hoteldə eyni zamanda 241 nəfər qala biləcək. Burada restoran, çoxfunksiyalı iclas otaqları, idman zalı və açıq terras da fəaliyyət göstərəcək.

Bütün bunlar həm də iş yerləri deməkdir. Məsələn, yeni hoteldə ümumilikdə 120 nəfər işlə təmin ediləcək.

Keçmiş məcburi köçkün Cəfər Cabbarlının dedikləri doğma yurda dönmüş və işlə təmin olunmuş sakinlərin, əslində, hər birinin ürək sözləri idi: "Möhtərəm cənab Prezident, mən öz doğma torpağına qayıtmış bir Zəngilan gənciyəm. Eyni zamanda qürurla bildirmək istəyirəm ki, mən öz müqəddəs peşə fəaliyyətini elə müqəddəs Zəngilanımızda davam etdirən müəllim ailəsinin başçısıyam. Onu da qeyd edim ki, mən öz həyat yoldaşımla birlikdə qayıdışın ilk məskəni olan Ağalı kənd tam orta məktəbində öz şərəfli, müqəddəs peşə fəaliyyətimizi birlikdə icra edirik. Zəngilan gənclərinin savadlı yetişdirilməsində, vətənpərvər yetişdirilməsində, intellektual olmasında biz öz əməyimizi səylə ortaya qoyuruq. Onu da qeyd etmək istəyirik ki, bu qüruru bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm. Şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə, müharibə iştirakçılarımıza Allahdan cansağlığı diləyirik. Zəngilan gəncləri olaraq hər zaman "dəmir yumruq" kimi Sizin ətrafınızdayıq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# *Amerikalı ekspert:* "WUF Azərbaycanın qlobal auditoriyaya evsahibliyi etməsi üçün daha bir fürsətdir"

**"Azərbaycan şəhər inkişafına yönəlmiş qlobal tədbirə evsahibliyi edəcək və bu, COP kimi yenidən növbəti beynəlxalq bir toplantıdır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Qlobal Siyasət İnstitutunun prezidenti, Vaşinqtondakı Bay Atlantik Universitetinin politologiya və beynəlxalq münasibətlər üzrə professoru Paolo Von Şirah deyib. O bildirib ki, bu tədbir Azərbaycanın qlobal auditoriyaya evsahibliyi etməsi üçün daha bir fürsətdir.

"Azərbaycan vacib regional oyunçu, əsas enerji ixracatçısı və beynəlxalq birliyin hərtərəfli fəal üzvüdür. Bu qlobal forumun və şəhərsalma tədbirinin burada keçirilməsi bir çox baxımdan əhəmiyyət daşıyır. Əlbəttə, bu, Azərbaycan üçün müxtəlif hökumət nümayəndələrini, dövlət qurumlarını, QHT-ləri, dünyanın müxtəlif ölkələrindən özəl sektor təmsilçilərini, tikinti şirkətlərini, memarlıq firmalarını, infrastrukturun inkişafı sahəsində çalışan mütəxəssisləri və büdcə ekspertlərini bir araya gətirmək imkanı yaradır. Bu, eyni zamanda Azərbaycan üçün şəhərsalma sahəsində yeni düşüncə modeli nümayiş etdirmək baxımından da mühüm fürsətdir. Xüsusilə də tədbirin Qarabağın yenidən qurulması istiqamətində davamlı işlərin aparıldığı bir dövrə təsadüf etməsi xüsusi əhəmiyyət kəsb edir", - deyə ekspert bildirib.

Onun sözlərinə görə, bu tədbirə evsahibliyi etmək Azərbaycana qlobal müzakirələrə töhfə vermək imkanı yaradacaq.

# Bakıda yerüstü və yeraltı piyada keçidlərində eskalator və liftlərin yenilənməsinə başlanılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində yerləşən yerüstü və yeraltı piyada keçidlərində eskalator və bəzi liftlərin yenilənməsi istiqamətində hazırlıq işlərinə başlanılır.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, bu işlər çərçivəsində sakinlərdən daxil olan şikayətlər əsasında paytaxtın müxtəlif ərazilərində yerləşən 46 ünvandakı yerüstü və yeraltı keçiddə ümumilikdə 177 eskalatorun və 2 travelatorun (pilləsiz, gəzinti sürətini artırmaq üçün özü hərəkət edən şaquli yol) yenilənməsi nəzərdə tutulur. Eyni zamanda yerüstü piyada keçidlərində quraşdırılmış bəzi liftlərin dəyişdirilməsi və əsaslı təmiri də həyata keçiriləcək.



Yenilənəcək eskalatorların bəziləri texniki uyğunsuzluqla quraşdırılmış, digərləri isə artıq istismar müddətini başa vurmuş qurğulardır. Vətəndaşların təhlükəsizliyini və rahatlığını təmin etmək məqsədilə həmin avadanlıqlar tamamilə yeniləri ilə əvəz olunacaq.

Yeni, müasir eskalatorlar bu sahədə dünyanın aparıcı istehsalçılarından biri hesab olunan Finlandiyanın məşhur "KONE" şirkətinin istehsalı olacaq.

Belə ki, hər bir keçid üçün nəzərdə tutulan mexanizmlər individual ölçü və texniki göstəricilərə uyğun olaraq zavod şəraitində xüsusi sifarişlə istehsal edilir. Buna görə də avadanlıqların istehsalı və çatdırılması üçün bir neçə ay vaxt tələb olunacaq. Bu səbəbdən də quraşdırma işlərinə bu ilin payızında mərhələli şəkildə başlanılması planlaşdırılır.

Hazırda Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) balansında olan sözügedən eskalator və mexanizmlər Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yenilənərək balansa qəbul ediləcək.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Məktəb, yoxsa repetitor?

**Bu** sual son illər demək olar ki, ailəsində şagird olan bütün valideynləri düşündürən və rahatsız edən məsələdir. Əslində isə məktəb və repetitor bir-birinə alternativ deyil, tamamlayıcı olmalıdır. Məktəb - sistemli təhsilin, sosial mühitin və əsas bilik bazasının verildiyi yerdir. Repetitor isə fərdi yanaşma ilə boşluqları dolduran, temp və izah səviyyəsini uşağa uyğunlaşdıran əlavə dəstəkdir. Amma problem ondadır ki, bir çox hallarda repetitor artıq "əlavə" yox, "zəruri" kimi qəbul olunur. Bu isə təhsil sistemində müəyyən çatların olduğuna işarə edir.

Məktəb proqramı nəzəri olaraq imtahan üçün kifayət etməlidir. Çünki imtahanlar da məhz həmin proqram əsasında qurulur. Lakin praktikada bir neçə səbəb uşaqları repetitora yönəldir. Birinci səbəb sinifdə şagirdlərin sayının çox olmasıdır. O üzdən müəllim hər şagirdə fərdi diqqət ayıra bilmir. İkincisi, dərs tempinin hamı üçün eyni olmasıdır - kimisi üçün çox sürətli, kimisi üçün isə çox yavaş. Üçüncüsü, bəzi hallarda dərsin sadəcə "keçilməsi", amma dərindən izah olunmamasıdır. Nəticədə şagird bir mövzunu tam anlamadan növbəti mövzuya keçir və beləliklə, boşluqlar yaranmağa başlayır. Bu boşluqları isə çox vaxt repetitor doldurur və ya doldurmağa çalışır.

Amma bütün məsuliyyəti məktəbin üzərinə atmaq da düzgün deyil. Şagirdin rolu burada çox vacibdir. Dərsi dinləmək, qeydlər aparmaq, ev tapşırıqlarını vaxtında və yüksək səviyyədə yerinə yetirmək, anlamadığı mövzunu soruşmaq - bunlar əsasdır. Bəzi şagirdlər repetitoru "xilaskar" kimi görüb məktəbdə passiv olurlar. Halbuki repetitor yalnız dəstəkdir, əsas iş yenə də şagirdin öz üzərində çalışmasıdır. Nizam-intizam, diqqət və məsuliyyət olmadan nə məktəb, nə də repetitor real nəticə verə bilər.

Repetitor deyəndə ağlımıza ilk olaraq müəllimin şagirdlə fərdi məşğul olması gəlir. Gəlin etiraf edək ki, bu gün repetitorların bir qrupundakı şagirdlərin sayı məktəb siniflərindən geri qalmır. Bu da təbii ki, nəticəyə təsirsiz ötüşmür. Daxili sınaqlarda yüksək bal toplayan şagirdlərin imtahanda zəif nəticə göstərməsi də valideynləri rahatsız edən məqamlardandır. Az bal topladığı üçün tez-tez repetitor dəyişən valideynlər balın məqsəd yox, bilik səviyyəsinin göstəricisi olduğunu unutmamalıdırlar. Amma qiymət və ya bal da hər zaman uşağın biliyinin tam göstəricisi deyil. Bu, şagirdin sadəcə müəyyən anda, müəyyən formatda göstərdiyi performansdır. Amma biz bunu çox vaxt uşağın zəka səviyyəsi və ya gələcəyi ilə eyniləşdiririk. Bu isə uşağın üzərində görünməz, amma ağır bir təzyiq yaradır, özünə inamın azalmasına, motivasiya itkisinə, hətta bəzi hallarda depressiv ovqata gətirib çıxara bilir.

Valideynlərin məsuliyyəti balans yaratmaqdır. Bəzi valideynlər düşünürlər ki, repetitor varsa, artıq övladının təhsili təmin olunub. Bu yanaşma yanlışdır. Valideyn övladının dərsə münasibətini izləməli, onu motivasiya etməli, amma eyni zamanda həddindən artıq yükləməməlidir. Uşağı səhər məktəb, günorta repetitor, axşam isə gündüz verilən tapşırıqların icrası ilə yükləmək bəzən əks effekt - yorğunluq, maraq itkisi və stres yaradır. Əsas məsələ saatların çoxluğu yox, öyrənməyin keyfiyyətidir.

Məktəbin məsuliyyəti isə daha çoxdur. Məktəb yalnız proqramı "çatdırmaq" yox, onu şagirdə mənimsətmək funksiyasını daşıyır. Müasir yanaşmalar, interaktiv dərslər, fərqli öyrənmə üsulları tətbiq olunmalıdır. Müəllim uşağın zəif və güclü tərəflərini görməli, onu passiv dinləyicidən aktiv şagirdə çevirməlidir. Əgər məktəbdə dərs maraqlı, aydın və sistemli olsa, repetitora ehtiyac xeyli azalar.

Digər tərəfdən, cəmiyyət olaraq biz də nəticəyönümlü düşünməyə həddindən artıq diqqət veririk. Yüksək bal, qəbul, diplom - bunlar təəssüf ki, əsas məqsədə çevrilib. Bu zaman isə savad, dünyagörüşü arxa plana keçir. Repetitorluğun bu qədər geniş yayılmasının səbəblərindən biri də məhz bu düşüncə tərzidir. Halbuki təhsil yalnız imtahan verib qiymət almaqdan ibarət deyil, düşünmə bacarığı, analiz, dünyagörüşü və həyat vərdişləri formalaşdırmalıdır. Əslində, təhsil prosesi rəqabət yox, inkişaf üzərində qurulmalıdır. Uşaq öz dünəni ilə müqayisə olunmalıdır, başqaları ilə yox. "Sən filankəsdən geri qaldın" yox, "dünənə görə irəliləmisənmi?" sualı əsas olmalıdır. Bu, uşaqda həm daxili motivasiyanı gücləndirir, həm də stresi azaldır.

Ən vacib məqamlardan biri isə bir ailədə iki və ya üç uşağın eyni vaxtda repetitorlara getməsinin ilk növbədə ailə büdcəsinə ciddi yük yaratmasıdır. Xüsusilə aşağı və orta gəlirli ailələr üçün bu, çox vaxt digər vacib ehtiyacların arxa plana keçməsi deməkdir. Valideynlər uşaqlarının gələcəyi naminə buna getməyə məcburdurlar. Amma bu yük uzunmüddətli stres və gərginlik yaradır. Uşaq isə çox vaxt bunun fərqində olmasa da, evdəki gərginliyi hiss edir ki, bu da onun psixoloji vəziyyətinə təsirsiz ötüşmür. Bununla yanaşı, ailədə bir neçə uşaq repetitora gedəndə valideyn istər-istəməz nəticələri müqayisə edir. "Bax qardaşın daha yaxşı yazdı" kimi ifadələr uşaqlarda həm rəqabəti, həm də özünə inamsızlığı artırır. Bu isə sağlam inkişaf üçün risklidir. Digər bir məqam isə eyni evdən bir neçə uşağın məktəb proqramını mənimsəmək üçün əlavə dəstəyə ehtiyac duymasıdır. Deməli, problem ayrı-ayrı uşaqlarda deyil. Bu ya proqram ağırlığını və tədris metodlarının kifayət qədər effektiv olmamasını, ya da ümumi təhsil yanaşmasındakı boşluqları göstərir. Çünki fərqli qabiliyyətlərə sahib olan uşaqların hamısının eyni anda əlavə dəstəyə ehtiyac duyması təsadüfi deyil.

Əslində, hər uşağın qabiliyyəti fərdi qiymətləndirilməlidir. Sadəcə "hamı gedir" deyə bütün uşaqları repetitor yanına yönləndirmək düzgün yanaşma deyil. Bəlkə bir uşaq həqiqətən əlavə dəstəyə ehtiyac duyur, amma digəri məktəbdə verilənlə kifayətlənə bilər. Əsas məsələ tələsik qərar vermək yox, müşahidə etmək və düzgün analiz etməkdir.

Valideyn uşağın yalnız akademik yox, emosional və sosial inkişafını da düşünməlidir. Bəzən repetitor sayını azaltmaq, uşağa daha çox sərbəst vaxt vermək, onun maraqlarını inkişaf etdirmək daha faydalı ola bilər.

Repetitor məsələsinə psixoloqlar daha balanslı yanaşma tövsiyə edirlər. Əgər uşaq həqiqətən mövzunu anlamırsa və əlavə izaha ehtiyacı varsa, repetitor faydalıdır. Amma əgər uşaq artıq yorğun, motivasiyasız və tükənmiş vəziyyətdədirsə, əlavə dərslər problemi həll etmir, əksinə, dərinləşdirir. Bu halda uşağa repetitordan çox istirahət, emosional dəstək və özünə vaxt lazımdır. Təəssüf ki, valideynlər uşağın psixoloji vəziyyətini nəzərə almır, ondan daha yüksək nəticə umurlar. Psixoloqlar valideynlərə tövsiyə edirlər ki, uşağın nəticəsindən əvvəl onun səyini və prosesdə göstərdiyi çalışqanlığı qiymətləndirsinlər. Uşaq bilməlidir ki, o yalnız yüksək bal topladığı üçün yox, sadəcə var olduğu üçün dəyərlidir. Evdə yaradılan belə mühit uşağın psixoloji dayanıqlığına birbaşa təsir edir.

Məktəb və repetitor mövzusu eyni zamanda psixoloji sağlamlıq məsələsidir. Son illər psixoloqların ən çox diqqət çəkdikləri məqamlardan biri də məhz uşaqların imtahan nəticələrinə görə öz dəyərlərini ölçməyə başlamasıdır. Bu isə təhlükəli bir tendensiyadır.

Repetitor yanına getmək çox vaxt "uğurun zəmanəti" kimi təqdim olunur. Amma repetitor heç vaxt 100 faiz nəticə vəd edən vasitə deyil. Bu, yalnız doğru qurulduqda effekt verən bir dəstək modelidir. Repetitor izah edə, istiqamət göstərə, səhvləri düzəldə bilər. Amma öyrənməli olan uşağın özüdür. Əgər şagird diqqətsizdirsə, tapşırıqları yerinə yetirmirsə və ya sadəcə qayıb almamaq üçün dərsə gedirsə, nəticə gözlənilən kimi olmur. Bu halda repetitor da kömək edə bilən deyil.

Digər tərəfdən, hər repetitor hər uşağa uyğun olmur. Uşaqların öyrənmə, qavrama qabiliyyəti fərqlidir: kimisi vizual izahı daha yaxşı anlayır, kimisi praktika ilə öyrənir, kimisi daha çox təkrar istəyir, kimisi isə, ümumiyyətlə, zəif qavrayır. Əgər repetitorun tədris metodu uşağın qavrama qabiliyyətinə uyğun gəlmirsə, nəticə olmayacaq. Bəzən valideynlər "yaxşı müəllimdir" deyə seçim edir, amma bu vaxt "bizim uşağa uyğundurmu?" sualını unudurlar.

Bu mövzuda motivasiya da önəmli məqamlardan biri sayıla bilər. Əgər uşaq daxili motivasiya ilə yox, yalnız təzyiq və məcburiyyətlə repetitor yanına gedirsə, nəticə ya zəif olur, ya da ümumiyyətlə, olmur. Çünki öyrənmə maraq və istəklə möhkəmlənir, məcburiyyətlə yox. Bu vəziyyət bizə göstərir ki, təhsildə balans pozulub və onu bərpa etmək üçün həm məktəb, həm valideyn, həm də ümumi yanaşma dəyişməlidir. Uşaqların hamısını eyni sistemə uyğunlaşdırmaq yox, sistemi uşaqlara uyğunlaşdırmaq daha doğru yol olar.

Beləliklə, "məktəb, yoxsa repetitor?" sualının cavabı birmənalı deyil. Sağlam model belə olmalıdır: güclü məktəb bazası, məsuliyyətli şagird, dəstək verən valideyn və ehtiyac olduqda düzgün seçilmiş repetitor. Əgər bu dörd element birlikdə olarsa, uşaqlar əlavə yük altında əzilmədən, daha effektiv və sağlam şəkildə uğur qazana bilərlər.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***

# Ötən həftənin iqtisadi icmalı

## Beynəlxalq sərgilər, innovasiya, "qara qızıl" və qiymətli metalların dəyişən qiymətləri

**A**zərbaycan ötən həftə iqtisadiyyat, aqrobiznes, sənaye, nəqliyyat sahələrində intensiv fəaliyyət göstərdi və beynəlxalq əməkdaşlıqda addımlar atdı. Paytaxtda keçirilən beynəlxalq sərgilər, forumlar və yüksəksəviyyəli görüşlər ölkənin regional biznes platforması kimi rolunu daha da gücləndirdi. Eyni zamanda yerli istehsalın artırılması, dayanıqlı nəqliyyat və infrastruktur layihələri üzrə verilən mesajlar gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdi.

Həftə Azərbaycanın əczaçılıq sənayesinin inkişaf perspektivlərinin müzakirəsi ilə başladı. "Azərbaycan Əczaçılıq Sənayesi: dünən, bu gün və sabah" II Beynəlxalq Konfransında bu sahənin mövcud vəziyyəti, yerli istehsal imkanları və gələcək inkişaf perspektivləri müzakirə olunub. Tədbirdə əczaçılıq sənayesində idxaldan asılılığın azaldılması, investisiyaların artırılması və ixrac potensialının genişləndirilməsinin vacibliyi vurğulanıb. Konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli bu sahənin ölkə üçün strateji prioritet olduğunu qeyd edərək, yerli istehsalın artırılması və idxaldan asılılığın azaldılması istiqamətində həyata keçirilən layihələrdən danışıb.

❖❖❖

Əczaçılıq sənayesindəki inkişaf perspektivləri müzakirə edilərkən, iqtisadi əməkdaşlıq sahəsində də mühüm addımlar atılıb: mayın 4-də İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycana rəsmi səfərə gəlib. Səfər çərçivəsində o, Prezident İlham Əliyevlə təkbətək görüşərək, iki ölkə arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi və ticarət əlaqələrinin genişləndirilməsi perspektivlərini müzakirə edib. Görüş zamanı tərəflər qarşılıqlı investisiya imkanları, sənaye və energetika sahələrində əməkdaşlıq, həmçinin regional iqtisadi layihələrdə birgə iştirak məsələlərinə diqqət yetiriblər.

❖❖❖

Həftənin əsas diqqət çəkən hadisəsi mayın 5-də "Bakı-Ekspo" Mərkəzində "Caspian Agro Week" və "InterFood Azerbaijan" sərgilərinin açılışı olub. Sərgilər aqrar və qida sahələrində yeni texnologiyaların təqdimatı, ölkədaxili və beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün əlverişli platforma rolunu oynayıb. Həmin gün 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu, 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi və 14-cü Xəzər Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Sərgisi işə başlayıb. Sərgilər mayın 8-də yekunlaşıb.

Qeyd edək ki, bu il sərgilər bir sıra yeniliklərlə yadda qalıb. Əvvəllər "Caspian Agro" adlanan sərgi 2026-cı ildən etibarən "Caspian Agro Week" adı ilə keçirilib və Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi və Forumu kimi daha geniş konsepsiya ilə təşkil olunub. Yenilənmiş sərgi həm iştirakçılar, həm də ziyarətçilər üçün sektorlararası əməkdaşlıq, geniş netvörkinq və effektiv biznes dialoqu üçün şərait yaradıb. Sərgilərdə dünyanın 45 ölkəsindən 447 şirkət iştirak edib. Bu ölkələr sırasında Almaniya, ABŞ, Belarus, Benin, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Çin, Fransa, Hindistan, İndoneziya, İspaniya, İtaliya, Kamerun, Meksika, Nigeriya, Polşa, Qazaxıstan, Rusiya, Türkiyə, Yaponiya, Vyetnam və digər ölkələr yer alıb.

Unutmadan qeyd edək ki, sərgilərdə AFAZ (Africa-Azerbaijan Cooperation) ayrıca stendlə iştirak edib. Burada Benin, Cənubi Sudan, Efiopiya, Fil Dişi Sahili, Kamerun, Nigeriya, Qana, Seneqal, Somali, Tanzaniya və Zambiya şirkətləri təmsil olunub. AFAZ və Braziliya sərgilərə ilk dəfə qatılıb.

❖❖❖

Həftənin digər önəmli tədbiri V Aqrobiznesin İnkişafı Forumu oldu. Tədbir kənd təsərrüfatı və aqrobiznes sahəsində ölkənin gələcək inkişaf perspektivlərini müzakirə etmək üçün geniş imkan yaradıb. Forumda texnologiyalar, investisiya imkanları və dayanıqlı inkişaf modelləri ilə bağlı fikir mübadiləsi aparılıb, kənd təsərrüfatı siyasətinin gələcək prioritetləri müəyyənləşdirilib. Forumun əsas məqsədi dəyər zənciri olan istehsal, emal, logistika, maliyyə və bazara çıxış imkanlarını bir platformada birləşdirərək, aqrobiznesin dayanıqlı inkişafını təmin etmək olub. Belə yanaşma təbii ki, ölkədə aqrar sahənin rəqabətqabiliyyətini artırmaq, əlavə dəyər yaradan məhsullar istehsal etmək və beynəlxalq bazarlarda mövqeləri gücləndirmək üçün mühüm rol oynayır.

❖❖❖

Ötən həftə beynəlxalq əməkdaşlıq sahəsində də diqqətçəkən hadisələr baş verib. Belə ki, Almaniyanın Leypsiq şəhərində Azərbaycanın sədrliyi ilə Beynəlxalq Nəqliyyat Forumunun (BNF) İllik Sammiti işə başlayıb. Məqsəd nəqliyyat sistemlərinin səmərəliliyi, etibarlılığı və uzunmüddətli dayanıqlılığını artırmaq idi. Sammit bu il "Dayanıqlı nəqliyyatın maliyyələşdirilməsi" mövzusuna həsr olunub və iqlim dəyişikliyi, urbanizasiya və texnoloji yeniliklər fonunda böyük əhəmiyyət kəsb edib. Açılış mərasimində çıxış edən Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev BNF-nin 20 illik fəaliyyətini qeyd edərək, Azərbaycanın sədrliyi dövründə forumun fəaliyyətinə verdiyi töhfələrdən və təşkilatın daha inklüziv platformaya çevrilməsi istiqamətindəki səylərdən danışıb.

❖❖❖

Mayın 9-da faşizm üzərində qələbənin 81-ci ildönümü və mayın 10-da Ulu Öndər Heydər Əliyevin 103-cü doğum gününün qeyd edilməsi ötən həftənin mühüm tarixi və mənəvi hadisələri kimi yaddaşlara hopdu. Həmin günlər ölkəmizdə tarixi yaddaşın yad edilməsi və vətənpərvərlik ruhunun gücləndirilməsi baxımından geniş tədbirlərlə qeyd olundu. Prezident İlham Əliyev dövlət və hökumət nümayəndələrinin iştirakı ilə keçirilən mərasimlərdə həm qəhrəmanlıq salnamələri, həm də Ulu Öndərin Azərbaycan dövlətçiliyinə verdiyi töhfələr bir daha vurğulandı.

❖❖❖

Dünya bazarında qiymətli metalların bahalaşması ilə müşayiət olunan ötən həftə Nyu Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 20,3 dollar artaraq 4 714,6 dollar təşkil edib. Gümüş isə 1,14 dollar artaraq 78,45 dollara bərabər olub.

"Qara qızıl"a gəlincə, xəbər verilir ki, dünya birjalarında neft bahalaşıb. Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,03 dollar artaraq 101,09 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,57 dollar artaraq 95,38 dollar təşkil edib.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Neftin bahalaşması fonunda qızıl niyə ucuzlaşır?

Yaxın Şərqdə davam edən hərbi və geosiyasi gərginlik dünya iqtisadiyyatında yeni dalğalanma mərhələsi yaradıb. Təcrübə göstərir ki, adətən, iqtisadi böhranlar zamanı investorların sığındığı əsas aktivlərdən biri qızıl olur. Digəri isə enerji bazarı ilə birbaşa əlaqəli olan neftdir. Lakin bu dəfə baş verənlər ənənəvi qaydaları dəyişib, yəni neft kəskin bahalaşdığı halda qızıl dəyərini itirir. Bu dəyişiklik qlobal iqtisadiyyatın risklərə reaksiyasının dəyişdiyini göstərən mühüm siqnaldır.

"Euronews" telekanalı xəbər verir ki, fevralın 27-dən bəri "Brent" markalı neft təxminən 37 faiz bahalaşıb. Eyni dövrdə qızıl isə 10 faiz dəyər itirib. Bu, investorların ənənəvi qorunma strategiyalarının yenidən nəzərdən keçirilməsinə səbəb olub.

Bəs nə üçün neftin qiyməti yüksəlir? Əlbəttə ki, əsas səbəb bazarda yaranan kəskin qıtlıqdır. Fars körfəzində gündəlik 14,5 milyon barel neft istehsalının dayanması qlobal ehtiyatların rekord səviyyədə azalmasına gətirib çıxarıb. Nəticədə qiymətlər sürətlə artıb və bazar tarazlığı pozulub. Neft bazarında mexanizm sadədir, təklif azalanda, tələb uyğunlaşana qədər qiymətlər yüksəlir. Bu səbəbdən neft inflyasiyanın birbaşa mənbəyindən qazanc əldə etməyə imkan verir.

Dünya nəhənglərindən "Goldman Sachs" bankının analitiklərinin qiymətləndirməsinə görə, bu cür geosiyasi vəziyyət qlobal enerji balansını pozaraq nefti "inflyasiyanın əsas mühərriki"nə çevirir. Yəni neft sadəcə qiymət artımı yaşamır, həm də ümumi iqtisadi inflyasiyanı artıran əsas faktora çevrilir.



Bəs qızıl niyə dəyər itirir? Tarixən qızıl müharibə, böhran və inflyasiya dövrlərində investorlar üçün əsas sığınacaq olub. Lakin bu dəfə vəziyyət fərqlidir. Qızılın dəyərinin dəyişməsinin əsas səbəbi onun gəlir gətirməyən aktiv olmasıdır. O, nə faiz ödəyir, nə də dividend verir. Buna görə də onun "cazibəsi" birbaşa faiz dərəcələrindən asılıdır. Hazırda ABŞ Federal Ehtiyat Sistemi ilə bağlı gözləntilər dəyişib. Bazar əvvəlcə faiz endirimlərini gözləyirdi. Lakin Yaxın Şərq böhranı ilə birlikdə inflyasiya risklərinin artması bu gözləntiləri zəiflədib. İndi investorlar daha uzun müddət yüksək faizlərin qalacağını, hətta növbəti addımın faiz artımı ola biləcəyini düşünürlər. Bu isə qızıl üçün mənfi siqnaldır. Çünki yüksək faizlər investorları qızıla deyil, dövlət istiqrazları kimi gəlir gətirən aktivlərə yönləndirir. Nəticədə son həftələrdə qızıl təxminən 10 faiz ucuzlaşıb. Bu isə onun "hər zaman etibarlı aktiv" olması barədə stereotipi ciddi şəkildə zəiflədir.

Ənənəvi iqtisadi nəzəriyyəyə görə, müharibə və böhran dövrlərində qızıl qiymət qazanmalıdır. Lakin hazırkı vəziyyət göstərir ki, bu qayda artıq işləmir. Analitiklərin fikrincə, qızıl artıq birbaşa geosiyasi risklərə yox, həmin risklərə verilən iqtisadi və maliyyə reaksiyalarına daha çox həssasdır. Bəs bu nə deməkdir? Əgər böhran olur, amma mərkəzi banklar vəziyyəti idarə edə bilirsə, qızılın dəyəri zəifləyir. Əgər böhran mərkəzi banklara inamı sarsıdırsa, qızıl güclənir. Yəni qızıl artıq "sistemin etibarlılığına qarşı sığorta" rolunu oynayır.

Beləliklə, hazırkı böhran iki aktivin tam əks istiqamətdə hərəkət etdiyini göstərir. Yəni neft real iqtisadi böhrandan faydalanır, qızıl isə maliyyə siyasəti və faiz gözləntilərinə bağlanır. Neft birbaşa fiziki bazarla əlaqəlidir, yəni nə qədər az təklif varsa, qiymət bir o qədər yüksəlir. Qızıl isə daha çox maliyyə sisteminə bağlıdır, yəni faizlər və dolların gücü onun əsas hərəkətverici faktorudur.

Onu da qeyd edək ki, neftin bahalaşması avtomatik olaraq qlobal inflyasiyanı artırır. Enerji qiymətləri yüksəldikcə nəqliyyat, istehsal və istehlak xərcləri də artır. Bu vəziyyət investorlar üçün təzad yaradır. Belə ki, neft inflyasiyanı artırır və ondan qazanc əldə etmək mümkündür. Qızıl isə inflyasiyaya qarşı qoruma olmalı idi, lakin hazırda zəifləyir. Bu təzad göstərir ki, bazarlar artıq klassik modellərlə tam izah olunmur.

"Goldman Sachs" bankı uzunmüddətli perspektivdə qızılın yenidən yüksələ biləcəyini proqnozlaşdırır. Qeyd olunur ki, 2026-cı ilin sonuna qədər qızılın unsiyası 5400 ABŞ dolları səviyyəsinə qədər arta bilər. Bunun əsas səbəbləri isə mərkəzi bankların qızıl ehtiyatlarını artırması, dollar asılılığının azalması, qlobal borc səviyyələrinin yüksəlməsidir. Lakin qısa müddətdə risklər daha çox neftlə bağlıdır. Xüsusilə Hörmüz boğazı kimi strateji ərazilərdə gərginlik davam edərsə, neft qiymətləri yüksək qalacaq və bu da qlobal inflyasiya təzyiqini artıracaq.

***T.VERDİYEVA, "Azərbaycan"***

**bp, Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ yatağının işlənməsi üzrə risk xidməti sazişinin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində boru dəstlərinin istehsalı obyektinin tikintisinə aid Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə onlayn görüş keçirəcək.**

BP bütün maraqlı tərəfləri **15 may 2026-cı il tarixində saat 13:00-dan 15:00-dək** "Microsoft Teams" vasitəsilə keçiriləcək bu görüşdə iştirak etməyə dəvət edir.

ƏMSSTQ sənədinin layihə variantı və rəy formaları 1 may 2026-cı il tarixindən BP-nin veb-səhifəsinə yerləşdirilmişdir və onları aşağıdakı linklər vasitəsilə yükləmək mümkündür:

| | |
|---|---|
| Azərbaycan dilində: https://go.bp.com/bqD5u | |
| İngilis dilində: https://go.bp.com/K4B06 | |

Görüşdə proqram və sənəd haqqında təqdimatlar olacaq, auditoriyanın sualları cavablandırılacaq, irəli sürülən fikirlər və rəylər ətrafında müzakirə keçiriləcək. Rəy və təklifləri həmçinin esiafeedback@bp.com elektron ünvanına göndərməklə də təqdim etmək olar.

**Görüşə aşağıdakı keçid və ya QR kodu vasitəsilə qoşulmaq olar:**

https://go.bp.com/AEhxo

**Qoşulma təlimatı**

| Kompüterdən qoşulma | Mobil telefondan qoşulma |
|---|---|
| **"Microsoft Teams" vasitəsilə görüşə qoşulmaq** üçün təqdim edilmiş keçiddən istifadə edin. Bu keçidin açacağı səhifədə siz görüşə veb vasitəsilə və ya kompüter proqramını yükləməklə qoşula bilərsiniz. Əgər sizdə Teams proqramı artıq mövcuddursa, görüşə avtomatik şəkildə giriş edəcəksiniz.<br>Əgər sizin Teams hesabınız yoxdursa və görüş təşkilatçısı bu funksiyaya icazə veribsə, siz adınızı daxil etməklə, görüşə "qonaq" qismində qoşula bilərsiniz.<br>Əgər sizin Teams hesabınız mövcuddursa, o zaman **Sign in** bölməsinə daxil olaraq (onun yazışma (chat) və əlavə funksiyalarına giriş imkanı əldə etməklə) görüşə qoşula bilərsiniz. | Audio, video və məzmun bölüşmə funksiyaları da daxil olmaqla, mobil telefonda Teams proqramından ən yaxşı şəkildə istifadə edə bilmək üçün Teams proqramının mobil versiyasını yükləmək lazımdır.<br>Əgər bu proqram sizdə mövcuddursa, proqramı açıb görüşə qoşulmaq üçün **"Join Microsoft Teams Meeting"** keçidindən istifadə edin. Əgər bu proqram telefonunuzda yoxdursa, qeyd edilmiş keçid sizi "app store" platformasına yönləndirəcək və siz oradan həmin proqramı yükləyə bilərsiniz.<br>Əgər Teams hesabınız yoxdursa, "qonaq"qismində görüşə qoşulmaq üçün **"Join as a guest"** bölməsini seçin və adınızı daxil edin.<br>Əgər Teams hesabınız varsa, o zaman görüşə qoşulmaq (proqramın yazışma (chat) və əlavə funksiyalarına giriş imkanı əldə etməklə) üçün **"Sign in and join"** bölməsini seçin. |

**Qeyd:** proqramı görüş başlamamışdan öncə yükləməyə çalışın. Proqramın yüklənməsi internet bağlantınızdan asılı olaraq 1-2 dəqiqə vaxt apara bilər.


# Azərbaycan və Türkmənistan həmkarlar ittifaqları arasında Əməkdaşlıq Memorandumu imzalanıb





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzinin nümayəndə heyəti ilə görüş keçirilib.**

Konfederasiyanın sədri Sahib Məmmədov Azərbaycan və Türkmənistan arasında dostluq və əməkdaşlıq münasibətlərindən bəhs edib, dövlət başçılarının siyasi iradəsi nəticəsində ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb. O bildirib ki, bu, ölkələrimizin həmkarlar ittifaqları arasında əlaqələrin inkişafı üçün geniş imkanlar yaradır. Son illərdə bu əlaqələr daha da genişlənib, qarşılıqlı səfərlər həyata keçirilib, fikir və təcrübə mübadiləsi aparılıb.

Görüşdə AHİK tərəfindən əmək hüquqlarının etibarlı müdafiəsi, üzvlərə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və innovativ yanaşmaların tətbiqi istiqamətində görülən işlər, yollayış sisteminin rəqəmsallaşdırılması, sanatoriya-kurort xidmətlərinin modernləşdirilməsi barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, bu təşəbbüslər həmkarlar ittifaqları sistemində səmərəliliyin artırılmasına xidmət edir.

Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzinin sədri Oğulcənnət Berdiliyeva ölkəsində həmkarlar ittifaqlarının fəaliyyətindən, əmək hüquqlarının qorunması və həmkarlar ittifaqları üzvlərinin sosial müdafiəsi sahəsində görülən işlərdən bəhs edib, Azərbaycan həmkarlar ittifaqları ilə əlaqələrin gücləndirilməsində maraqlı olduqlarını bildirib.

Görüşün yekununda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzi arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənəd iki qurum arasında əlaqələrin institusional əsasda inkişafını, birgə təşəbbüs və layihələrin dəstəklənməsini, eləcə də qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

Səfər çərçivəsində Türkmənistan nümayəndə heyəti AHİK-in "Kurort" Turizm İnformasiya Mərkəzinin, Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzinin fəaliyyəti ilə tanış olub. Türkmənistan Milli Həmkarlar İttifaqları Mərkəzinin nümayəndələri həmçinin "Günəşli" və "Abşeron" sağlamlıq mərkəzlərində, eləcə də "Miras" istirahət mərkəzində olub, burada göstərilən xidmətlər, müalicə-profilaktik prosedurlar, infrastruktur və istirahət imkanları ilə maraqlanıblar.

*Nərminə ƏSGƏROVA, "Azərbaycan"*

# "Avroviziya-2026" iştirakçılar və pərəstişkarlar üçün əsl bayramdır

Avstriyanın paytaxtı Vyananın meriyasında 70-ci "Avroviziya" mahnı müsabiqəsinin açılış mərasimi keçirilib. Tədbir iştirakçılar və pərəstişkarlar üçün möhtəşəm bayrama çevrilib.





"Avroviziya - 2026" mahnı müsabiqəsinin iştirakçıları Avropanın ən vacib almandilli teatrlarından biri - milli Burqteatrdan Avstriya paytaxtının meriyasına kimi uzanan 170 metrlik firuzə rəngli xalçanın üzəri ilə gediblər və burada sənətçiləri Vyana meri Mixael Lüdviq və müsabiqə təşkilatçıları qarşılayıblar.

Builki "Avroviziya"ya təşkilatçılıq müsabiqənin tarixində ən çətin hazırlıqlardan biri idi. Beş ölkənin - Niderland, İrlandiya, İslandiya, İspaniya və Sloveniyanın yayımçıları İsrailin iştirakı səbəbindən "Avroviziya"nı boykot etdiklərini bildiriblər. Lakin 30 minə yaxın insan tutumu olan şəhər meriyasının qarşısındakı meydanda İsrail nümayəndəsi Noam Bettan xalça sərilmiş yolda gəzərkən heç bir narazılıq səsi eşidilməyib. Düzdür, açılış günü - mayın 10-da və ya bir gün əvvəl, əsas şənliklərdən kənarda kiçik etirazlar olmuşdu. Bu səbəbdən "Avroviziya" mahnı müsabiqəsi boyunca tətbiq olunan tədbirlərlə yanaşı, Vyanada İsrail nümayəndə heyətini qorumaq üçün xüsusi təhlükəsizlik tədbirləri görülüb. Avstriya hakimiyyətinin məlumatına görə, onlar mümkün kiberhücumların qarşısını almaq üçün ABŞ FTB ilə əməkdaşlıq edirlər.

Açılış mərasimi insidentsiz keçib. Azarkeşlər iştirakçıları smartfonlarını qaldıraraq "Avroviziya" mahnısının sədaları altında qarşılayıblar.

Açılış mərasimi müsabiqə ərzində bütün iştirakçıların bir araya gəldiyi yeganə tədbirdir. Onlardan bəziləri ilk iki yarımfinaldan sonra "Avroviziya" mahnı müsabiqəsindən kənarlaşdırılacaq. 16 may şənbə günü qapalı Wiener Stadthalle stadionunun arenasında keçiriləcək finalda builki müsabiqəyə qatılan 35 iştirakçıdan 25-i qələbə uğrunda mübarizə aparacaq.

Bukmekerlərin fikrincə, final ərəfəsində finlandiyalı skripkaçı Linda Lampenius və müğənni Pete Parkkonen duetinin yarışmada qalib gəlmək üçün ən yaxşı şansı var. Onların əsas rəqibləri Yunanıstandan Akylos, danimarkalı Sören Torpeqor Lund, Fransadan Monroe və Avstraliyadan Delta Qudrem hesab olunurlar. Ukraynanı təmsil edən Leleka da ilk onluğa düşmək üçün mübarizə aparır.

Son məlumata görə, dünən gecə saatlarında başa çatmış birinci yarımfinalda 15 ölkə - Moldova, İsveç, Xorvatiya, Yunanıstan, Portuqaliya, Gürcüstan, Finlandiya Monteneqro, Estoniya, İsrail, Belçika, Litva, San Marino, Polşa və Serbiya çıxış etmişlər və bu ölkələrdən 10-nu finala çıxmışdır.

Sabah - mayın 14-də keçiriləcək ikinci yarımfinalda isə Bolqarıstan, Azərbaycan, Rumıniya, Lüksemburq, Çexiya, Ermənistan, İsveçrə, Kipr, Latviya, Danimarka, Avstraliya, Ukrayna, Albaniya, Malta və Norveç finala aparan 10 vəsiqə uğrunda mübarizə aparacaqlar.

"Avroviziya" mahnı müsabiqəsinin 70-ci - yubiley yarışmasında ölkəmizi JIVA (Cəmilə Həşimova) "Just Go" kompozisiyası ilə təmsil edir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


## "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının nəzərinə

29 iyun 2026-cı il tarixdə saat 11:00-da "Qaradağ Maşınqayırma" ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcək. Yığıncaq cəmiyyətin inzibati binasında keçiriləcək. Yığıncağın gündəliyi aşağıdakı məsələlərdən ibarətdir.

**1. 2025-ci ilin illik hesabat məruzəsi.**

**2. Qarşıda duran cari məsələlər.**

**3. Cəmiyyətin nizamnaməsinin (yeni redaksiyada), Müşahidə Şurasının, İdarə Heyətinin və Təftiş komissiyasının tərkibinin təsdiqi.**

***Müdiriyyət***


# A.Quterreş Hörmüz boğazının bağlanmasının fəsadlarından danışıb



Birləşmiş Millətlər Təşkilatı ABŞ-İsrail və İran arasındakı müharibə fonunda Hörmüz boğazının bağlanmasının yaratdığı qiymət artımına, eləcə də bu vəziyyətin müxtəlif ölkələrin əhalisinin sosial vəziyyətinə mənfi təsirinə diqqət çəkib.

BMT Baş katibinin rəsmi nümayəndəsinin müavini Fərhan Haq təşkilatın Nyu Yorkdakı qərargahında keçirilən mətbuat konfransında Yaxın Şərqdəki son hadisələrdən danışıb. Haq BMT Baş katibi Antonio Quterreşin müharibə səbəbindən Hörmüz boğazının uzun müddət bağlanmasının qlobal ticarətə mənfi təsiri ilə bağlı fikirlərinə istinad edib. O bildirib: "Baş katib jurnalistlərlə danışarkən xüsusilə enerji və gübrə qiymətlərinin kəskin artması səbəbindən Hörmüz boğazında davam edən vəziyyətin bir çox Afrika ölkəsinə ciddi və mənfi təsirini ətraflı izah edib". Haq deyib ki, Quterreş Keniyanın paytaxtı Nayrobidəki BMT ofisinin ərazisində tikiləcək yeni konfrans zalının təməlqoyma mərasimində iştirak edib və orada jurnalistlərlə görüşüb. Haqqın sözlərinə görə, baş katibin Hörmüz boğazında naviqasiya azadlığının tam bərpası çağırışını təkrarlaması qlobal medianın diqqətini çəkib.

Ötən ayın 27-də BMT Təhlükəsizlik Şurasında eyni məsələ ilə bağlı çıxış edən Quterreş su yollarının təhlükəsizliyinin beynəlxalq nizamın sınağına çevrildiyini və mövcud vəziyyətin, xüsusən də Afrika və Cənubi Asiyada milyonlarla insanı aclığa və yoxsulluğa sürüklədiyini bildirib. Quterreş həmçinin Hörmüz boğazında naviqasiya hüquqlarına və azadlıqlarına hörmət etməyin vacibliyini vurğulayıb. "Mən tərəflərə müraciət edirəm: boğazı açın, gəmilərin ödənişsiz və ayrı-seçkilik olmadan keçməsinə icazə verin, ticarətin bərpasına imkan yaradın və qlobal iqtisadiyyata nəfəs almaq şansı verin", - deyə BMT Baş katibi bildirib.

*R.CƏFƏROV, "Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Şabran Rayon Statistika İdarəsinin rəisi

**YUSİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Vüsal Nəsirli və agentliyin kollektivi agentliyin İdarə Heyətinin sədr müavini Əvəz Qocayevə əzizi

**QURBAN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Vidadi Quliyevə anası

**CALİDƏ QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3818
Sifariş 626

Qiyməti 60 qəpik